RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 34 (9201) 15 FEVRAL 2023-cü il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İlham Əliyev Vladimir Putinə zəng edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.



Telefon söhbəti zamanı iqtisadi-ticari əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sahələrində birgə layihələrin həyata keçirilməsi perspektivləri geniş müzakirə olunub.

Cənubi Qafqaz regionunda cari vəziyyət barədə də ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin təmin olunması məqsədilə ardıcıl tədbirlərin görülməsinin əhəmiyyəti qeyd edilib. Bu kontekstdə Rusiya, Azərbaycan və Ermənistan arasında yüksək səviyyədə əldə olunmuş müvafiq razılaşmaların qeyd-şərtsiz yerinə yetirilməsinin vacibliyi vurğulanıb. Təmasların müxtəlif formatlarda davam etdiriləcəyi qeyd olunub.

***Prezidentin Mətbuat Xidməti***

## Azərbaycanın İtaliya və Vatikan ilə çox yaxşı münasibətləri var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də San-Marino Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Con Matsanın etimadnaməsini qəbul edib.

→ 2

## Qana ilə əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Qana Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Oheneba Lesli Akua Akyaa Opoku-Vare-nin etimadnaməsini qəbul edib.

→ 2

## Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasına xüsusi əhəmiyyət verir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Anqola Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Auqusto da Silva Kunhanın etimadnaməsini qəbul edib.

→ 2

# Azərbaycanın qlobal enerji bazarında mövqeyi güclənir



Son illər Azərbaycanda generasiya güclərinin artırılması, habelə elektrik enerjisi ilə təchizatda etibarlılığın və dayanıqlılığın gücləndirilməsi ilə bağlı yeni layihələrin təməlinin qoyulması əlamətdar hadisəyə çevrilmişdir.

Belə ki, ötən ilin yanvarında Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən Azərbaycanda inşa edilən 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının, mart ayında isə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa olunan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməli qoyulmuşdur. Bundan başqa, Qarabağ və Şərqi Zəngəzurda bərpa və yenidənqurma prosesinin tərkib hissəsi kimi yeni generasiya gücləri yaradılmaqdadır.

### Müstəqillik dövrünün ən böyük İES-i

Ölkəmizdə icra edilən elektrik enerjisi layihələrinin sırasına fevralın 13-də biri də əlavə olundu. Həmin gün müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük istilik-elektrik stansiyasının təməlqoyma mərasimi keçirildi. Bu istilik elektrik stansiyası Prezident İlham Əliyevin 2022-ci il oktyabrın 25-də imzaladığı sərəncama əsasən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası sayılan Mingəçevirdəki "Azərbaycan" İES-in ərazisində yaradılır. Bu məqsədlə yeni elektrik stansiyasında İtaliyanın "Ansaldo Energia" şirkətinin istehsalı olan 4 qaz turbini, 4 generator, Çinin "Dongfang Electric" şirkətinin istehsalı olan 4 util qazan və 4 blok transformator quraşdırılacaq. Bundan əlavə, yeni yüksəktəzyiqli qaz xəttinin, qazpaylayıcı stansiyanın, susoyutma, saf su hazırlanma şəbəkəsinin, idarəetmə və mühafizə sistemlərinin qurulması da həyata keçiriləcək. Beləliklə, Azərbaycanın enerji sistemində 1280 meqavatlıq yeni və nəhəng elektrik stansiyası yaradılacaq. Bu stansiya "Azərbaycan" İES-in heç bir infrastrukturu olmadan müstəqil istismar ediləcək.

→ 4

## Rusiya ilə ikitərəfli əlaqələr uğurla inkişaf edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.

→ 2

**Heydər Əliyev İli - 2023**

## Heydər Əliyev mübarizlik və vətənpərvərlik nümunəsidir

Heydər Əliyev bu münasibəti dəyişə və milli respublikanın inkişafında böyük uğurlar əldə edə bildi. Məhz bu uğurlara görə idi ki, Moskva Azərbaycan liderinin potensialından istifadə etmək qərarına gəldi və onu keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi yüksəkliyə qaldırdı. Heydər Əliyevə qədər Şərq xalqlarından belə yüksək siyasi olimpə qalxa bilən olmamışdı. Heydər Əliyevə uğurlar qazandıran əsas amillər onun şəxsi keyfiyyətləri və prioritetləri düzgün müəyyənləşdirə bilməsi idi. Sadə xalqın içərisində böyüyən, ziyalılarla çox yaxın münasibətlərdə olan Ulu Öndər Azərbaycan xalqının tarixinə, problemlərinə yaxşı bələd idi və bütün gücü ilə mənsub olduğu xalqının inkişafına çalışırdı.

→ 5

## Hər şəhərdən, hər məhəllədən, hər evdən...

### Azərbaycanın hər yerindən Türkiyəyə yardım göndərilir

Azərbaycan Türkiyədə baş vermiş güclü zəlzələ ilə əlaqədar zərərçəkənlərə yardım kampaniyasını davam etdirir. Prezident İlham Əliyevin tapşırığına əsasən, qardaş ölkəyə yollanmış Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılması üçün axtarış-xilasetmə əməliyyatlarını həyata keçirirlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın göstərişi ilə Türkiyəyə davamlı şəkildə tibbi ləvazimat və avadanlıqlar, isti geyimlər və digər əşyalar çatdırılır. Ölkəmizin bütün bölgələrində vətəndaşlarımız Türkiyəyə dəstək üçün yardımtoplama məntəqələrinə axın edirlər.

→ 6

## Ş.S.Bağırovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 fevral 2023-cü il*

## Türk mədəniyyətinin Şuşa zirvəsi

TÜRKSOY Media Mükafatının (2022-ci ilin yekunlarına dair) təqdimatı, Türk dünyası xalqlarının adət və ənənələrini özündə əks etdirən tədbirlərin təşkili: - Türk dünyası xalqlarına məxsus qədim idman növlərinin nümayiş etdirilməsi, türk dünyası xalqlarının kulinariya günlərinin keçirilməsi, türk dünyası dövlətlərinin aktiv və mədəni turizm sahəsində səyahətçi, bloqçu və digər şəxslərin Şuşaya səfərlərinin təşkili, "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində beynəlxalq konfrans, elmi seminar və digər tədbirlərin keçirilməsi, "Türk dünyası: ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış", "Əhməd bəy Ağaoğlu və Türk dünyası", "Şuşa Türk dünyası tarixində" mövzusunda beynəlxalq konfranslar, "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar, "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatı 2023-cü il ərzində həyata keçiriləcək.

→ 11

## Səbrin də bir həddi var...

**Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində ekofəalların, vətənpərvər gənclərin Rusiya sülhməramlılarının nəzarətində olan, ermənilər tərəfindən "Qızılbulaq" və "Dəmirli" yataqlarının qanunsuz istismar edilməsinə və təbiətimizə vurulan zərərə etiraz olaraq keçirdikləri etiraz aksiyası iki aydan çoxdur ki, fasiləsiz olaraq davam edir.**

Bu müddət ərzində erməni təbliğat maşını tam gücü ilə işə düşərək "yazıq", "məzlum" erməni xalqının "blokada"da qalıb, "humanitar" böhran yaşamasını dünyaya car edir. Bundan istifadə edən Fransanın Azərbaycana qarşı qərəzi, fitnəkarlığı pik həddə çatıb. İran isə erməniləri qızışdırıb müharibəyə təhrik edir... Erməni yalanlarına dəm tutanların sayı təkcə Fransa və İranla da bitmir.

→ 9

## İranın bitməyən mənəvi terroru

**Qırx dörd il öncə də İranda hakimiyyətə qarşı etirazlar kütləvi hal almışdı və ara vermədən davam edirdi. O zaman hökumətə Məhəmməd Rza şah Pəhləvi rəhbərlik edirdi. İran Məhəmməd Rza şahın mənsub olduğu Pəhləvi sülaləsinin başçılıq etdiyi monarxiya quruluşuna malik dünyəvi dövlət idi.**

1970-ci ilin sonlarında İran inqilab alovlarına büründü. Səbəblər olaraq şahın keçirdiyi islahatlarla sadə xalqı narazı salması, eləcə də Avropa və ABŞ-lə yaxın əlaqələri göstərildi. Hadisələr gündən-günə gərginləşdi. Şah rejiminə qarşı başlayan etirazlar genişləndi. Müxalif ruhanilər də xalqın narazılığından məharətlə istifadə etdilər və əsas məqsədlərinə çatdılar. Şah 1979-cu ilin yanvarında ailəsi ilə İrandan qaçmalı oldu.

→ 9

# Azərbaycanın İtaliya və Vatikan ilə çox yaxşı münasibətləri var

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, səfir Con Matsa etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm sahələrində əlaqələrin genişləndirilməsi üçün imkanlar mövcuddur və bu xüsusda təmaslar daha da fəallaşdırılıb.

Prezident İlham Əliyev San-Marino rəhbərlərinin 2015-ci ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, müxtəlifsəviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə ümidvarlığını ifadə etdi.

Səfir Con Matsa ölkələrimiz arasında əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu vurğuladı, San-Marinonun Azərbaycanla münasibətləri dərinləşdirməkdə, siyasi, həmçinin mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Səfir bundan sonra mütəmadi əsasda Azərbaycana səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə görüşlər keçirəcəyini və əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

San-Marinonun İtaliya ilə də çox sıx əlaqəsinin olduğunu vurğulayan diplomat bu çərçivədə də ölkələrimiz arasında xüsusilə təhsil və turizm sahələrində əməkdaşlıq üçün imkanların mövcudluğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində bildirdi ki, ölkəmizin həm İtaliya, həm də Vatikan ilə çox yaxşı münasibətləri var. İtaliya-Azərbaycan əlaqələri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Prezident İlham Əliyev həmçinin özünün Vatikana və Roma papalarının Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Bu əsnada ölkələrimiz arasında yaxşı əməkdaşlıq imkanlarının olduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə San-Marinonun işgüzar dairələri arasında birbaşa əlaqələrin yaradılması, San-Marinonun turizm imkanlarının ölkəmizdə təqdim olunması, habelə təhsil sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyini diqqətə çatdırdı.

# Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasına xüsusi əhəmiyyət verir

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, səfir Auqusto da Silva Kunha etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı vurğuladı ki, Anqola ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük imkanlar mövcuddur. Energetika sahəsini xüsusi qeyd edən Prezident İlham Əliyev ölkələrimizin bu sahədə də əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdırdı.

Azərbaycan Prezidenti ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Anqolanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi. Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında aparılan islahatlar çərçivəsində Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik edən ölkənin rotasiya qaydasında BMT Təhlükəsizlik Şurasının daimi üzvü olması təşəbbüsü ilə çıxış etdiyini vurğuladı, Hərəkata üzv dövlətlər arasında bununla bağlı məsləhətləşmələrin aparılmasının vacibliyini qeyd etdi.

Auqusto da Silva Kunha Azərbaycana qeyri-rezident səfir təyin olunmasından məmnunluğunu bildirdi və Anqola Prezidenti Joao Lorensonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Anqolanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Səfir bildirdi ki, Anqola müstəqillik əldə etdikdən sonra Azərbaycan bu ölkədə mütəxəssislərin hazırlanmasına böyük töhfələr verib. Diplomat bu xüsusda mütəxəssislərin, mühəndislərin, həkimlərin və hərbçilərin hazırlanmasında Azərbaycanın ali təhsil müəssisələrinin mühüm rol oynadığını diqqətə çatdırdı. Ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu bildirən Auqusto da Silva Kunha Anqolanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə dəstək verdiyini vurğuladı və ölkəmizin təşkilatda sədrliyinə uğurlar arzuladı.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan Qoşulmama Hərəkatının sədrliyini qəbul edən zaman təşkilata üzv dövlətlərin problemlərinin gündəlikdə saxlanılacağını xüsusi qeyd etmişdi və dövlətimiz bu məsələyə mühüm əhəmiyyət verir.

Görüşdə həmçinin elm, təhsil, kənd təsərrüfatı, mədən sənayesi, energetika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Qana ilə əməkdaşlığın inkişafı üçün geniş imkanlar mövcuddur

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci Zirvə Görüşündə iştirak etmək üçün Qana Prezidenti Nana Akufo-Addonun Azərbaycana səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə Qananın verdiyi dəstəyin və göstərdiyi etimadın ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırdı, Azərbaycanın təşkilatın sədri kimi peyvənd millətçiliyinə qarşı apardığı fəaliyyəti vurğuladı və bu sahədə yaxşı nailiyyətlərin əldə olunduğunu dedi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində kontakt qrupu ölkələrinin iştirakı ilə gələn ay COVID-19-dan sonrakı dünyaya həsr olunmuş növbəti sammitə evsahibliyi edəcəyini bildirdi. Azərbaycan Prezidenti ölkələrimiz arasında siyasi əlaqələrin, iqtisadi-ticari, investisiya qoyuluşu sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğuladı.

Səfir də öz növbəsində Qana Prezidentinin 2019-cu ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi. Diplomat Azərbaycana Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətində uğurlar arzuladı. Azərbaycanda yaradılmış infrastrukturdan və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən məmnunluğunu bildirən səfir ölkəmizin davamlı inkişaf sahəsində təcrübəsinin maraqlı olduğunu qeyd etdi. O, həmçinin ölkələrimiz arasında təhsil, kənd təsərrüfatı, mədən sənayesi kimi sahələrdə əməkdaşlıq üçün imkanların olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrə ayırdığı təhsil qrantı çərçivəsində Qanadan olan 10-a yaxın tələbənin ölkəmizin müxtəlif təhsil müəssisələrində ali təhsil aldığını bildirdi.

Səfir təhsil sahəsində əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı, Azərbaycanın neft-qaz sahəsində ali təhsil müəssisələrinin rolunu xüsusi qeyd etdi.

Diplomat Azərbaycana mütəmadi səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə səmərəli əməkdaşlığın qurulacağına və ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyən ediləcəyinə ümidvar olduğunu dedi.

# Rusiya ilə ikitərəfli əlaqələr uğurla inkişaf edir



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı ilk növbədə Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. Yüksəksəviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev həmçinin iki ölkənin qanunverici orqanları səviyyəsində qarşılıqlı səfərlərin və əməkdaşlığın əhəmiyyətinə toxundu.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verdi.

## Ş.S.Bağırovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,14 fevral 2023-cü il*

# Sinxua agentliyi Azərbaycanda ən iri istilik elektrik stansiyasının təməlqoyma mərasimindən yazır




Çinin Sinxua agentliyinin saytında Azərbaycanda müstəqillik dövrünün 1280 MVt gücündə yeni ən iri istilik-elektrik stansiyasının təməlqoyma mərasimi barədə material dərc edilib.

Agentlik AZƏRTAC-a istinadla həmin mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin çıxışından sitat gətirir: "Əminəm ki, biz yaxın zamanlarda - 2025-ci ildə bu stansiyanın açılışını qeyd edəcəyik. Bu, çox əlamətdar hadisədir, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək, eyni zamanda Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq".

Materialda qeyd olunur ki, Prezident İlham Əliyev Mingəçevir şəhərində "Azərbaycan" İstilik Elektrik Stansiyasının modernləşdirilməsi barədə sərəncam verib. Vurğulanır ki, sərəncama əsasən, 7-ci və 8-ci enerji bloklarının gücünün daha 1280 MVt artırılması üçün müasir texnologiyalar tətbiq olunmaqla, "Azərbaycan" İES-in rasional modernləşdirilməsi planlaşdırılır.

Materialda diqqətə çatdırılır ki, "Azərbaycan" İES hər birinin gücü 300 meqavat olan 8 bloka malikdir. Azərbaycanda istehsal olunan bütün elektrik enerjisinin təqribən 45 faizi bu stansiyanın payına düşür.

Azərbaycan dövlətinin başçısı əlavə edib ki, bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat yarandığından, bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaq.

# İnformasiya sızmasının qarşısının alınması məqsədilə yeni proqram təminatı istifadəyə verilib

Dövlət qurumlarında informasiya təhlükəsizliyinin gücləndirilməsi və informasiya sızmasına səbəb ola bilən yerli və xarici disk daşıyıcılarından asılılığı aradan qaldırmaq üçün Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti (XRİTDX) yeni "share.gov.az" platformasını istifadəyə verib.




XRİTDX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qeyd olunan platforma "wetransfer", "dropbox", "boxca" və bu kimi platformalara etibarlı alternativdir. Platforma istifadəçilərə həm qarşı tərəflə bölüşülməsi istənilən faylların müvəqqəti saxlanc sistemində 5 dəqiqədən 15 gün intervalınadək saxlama, həm də istifadəçi şifrəsi ilə simmetrik şifrləmə imkanını verir. Bu da təhlükəsizliyin təmin olunması və məlumatların kənar müdaxilələrdən qorunması baxımından çox əhəmiyyətlidir.

Yalnız "AzStateNet" şəbəkəsinə qoşulmuş dövlət qurumları sözügedən platformaya fayl yükləmə imkanına malikdir. İstənilən şəbəkə istifadəçisi əldə etdiyi keçid (link) vasitəsilə (şifrələndiyi halda, şifrə vasitəsilə) yüklənmiş faylları endirə bilər. Platformadan istifadə zamanı istifadəçilərin maarifləndirilməsi məqsədilə interfeysə avtomatik yenilənən informasiya təhlükəsizliyi tövsiyələri - "Kibertövsiyə" bölməsi əlavə olunub.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti dövlət qurumlarının əməkdaşlarına informasiya sızmasına səbəb ola biləcək kənar xidmətlərdən istifadə etməməyi və məlumat bölüşməsi üçün yalnız "share.gov.az" platformasını tətbiq etməyi tövsiyə edir.

# Ötən il Hökumət Ödəniş Portalı vasitəsilə 85 milyon əməliyyat aparılıb

Hazırda Mərkəzi Bankın operatoru olduğu Hökumət Ödəniş Portalına (HÖP) inteqrasiya olunmuş qurumlar üzrə 1100-dən çox xidmət üzrə ödənişlərin toplanılması təmin olunur.

AZƏRTAC Mərkəzi Banka istinadla xəbər verir ki, 2022-ci il ərzində HÖP vasitəsilə həyata keçirilən əməliyyatların sayı 2021-ci illə müqayisədə 42 faiz artaraq 85 milyon ədəd, həcmi isə 23 faiz artaraq 5 milyard manat olub. Əməliyyatların say üzrə 62 faizi, həcm üzrə isə 66 faizi nağdsız formada aparılıb.

2022-ci ilin sonuna HÖP-ə 11 mərkəzi icra hakimiyyəti orqanı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti, 4 kommunal xidməti müəssisəsi, 5 stasionar və mobil rabitə operatoru, "Elektron Məhkəmə" portalı üzərindən 122 məhkəmə orqanı, İcbari Sığorta Bürosu vasitəsilə 19 sığorta şirkəti, Əmanətlərin Sığortalanması Fondu, İpoteka və Kredit Zəmanət Fondu, Əqli Mülkiyyət Agentliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, Milli Sertifikat Xidmətləri Mərkəzi, Dövlət İmtahan Mərkəzi və 100-dən çox ali və orta ixtisas təhsil müəssisəsi, 1438 bələdiyyə orqanı inteqrasiya olunub.

# Azərbaycanın Baş naziri Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib





Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 14-də Dünya Hökumət Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gedib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın Baş nazirini Dubay Beynəlxalq Hava Limanında Birləşmiş Ərəb Əmirliklərinin ictimai inkişaf naziri xanım Hessa bint Essa Buhumaid və digər rəsmi şəxslər qarşılayıblar.

# Ceyhun Bayramov Rusiya xarici işlər nazirinin xüsusi nümayəndəsi ilə fikir mübadiləsi aparıb



Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov fevralın 14-də Rusiya Federasiyasının xarici işlər nazirinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesinin, sülh sazişi üzrə danışıqların cari vəziyyəti, Laçın yolunda etirazların müxtəlif aspektləri müzakirə edilib.

Ceyhun Bayramov ölkəmizin həm ərazilərinin işğalı dövründə, həm də postmünaqişə dövründə göstərdiyi konstruktiv yanaşmalara, 44 günlük müharibədən sonra sülh prosesi üzrə təklifləri irəlilətməsinə baxmayaraq, Ermənistanın prosesə daim maneçilik törətdiyini qeyd edib. Nazir Ermənistanın sülh sazişi üzrə dekabrda keçirilməsi nəzərdə tutulan danışıqların növbəti raundunu boykot etdiyini xatırladıb.

Laçın yolundan üçtərəfli Bəyanatla nəzərdə tutulmayan təyinatdan kənar məqsədlər üçün istifadə edilməsi diqqətə çatdırılıb.

Nazir etirazçıların legitim tələblərinin hələ də yerinə yetirilmədiyini və Ermənistan tərəfinin bu vəziyyətdən öz siyasi məqsədləri üçün istifadə edərək məsələni yanlış məcraya yönəltdiyini vurğulayıb.

Görüşdə həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Kamran Əliyev səfirliyimizə terror hücumunun hərtərəfli araşdırılmasının zəruriliyini iranlı həmkarının diqqətinə çatdırıb

Fevralın 13-də qarşı tərəfin təşəbbüsü ilə Azərbaycan Respublikasının baş prokuroru Kamran Əliyev ilə İran İslam Respublikasının baş prokuroru Məhəmməd Cəfər Montazeri arasında telefon danışığı olub.

Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.



Baş prokuror M.Montazeri yanvarın 27-də ölkəmizin Tehrandakı səfirliyinin binasında törədilmiş cinayət hadisəsinə görə təəssüf hissi keçirdiyini bildirərək Azərbaycan xalqına, zərərçəkmişlərin ailə üzvlərinə başsağlığını ifadə edib. İranın baş prokuroru azərbaycanlı həmkarını cinayət işinin istintaqının gedişatı haqqında ətraflı məlumatlandırıb.

Kamran Əliyev Azərbaycanın İrandakı səfirliyinə qarşı törədilmiş terror aktını pisləyərək ölkəmizin aidiyyəti istintaq qurumunda cinayət işinin istintaqının davam etdiyini həmkarının diqqətinə çatdırıb. Baş prokuror İran tərəfindən cinayət işinin tam və hərtərəfli araşdırılmasının, bütün iştirakçıların müəyyən edilərək məsuliyyətə cəlb olunmasının, bu terror aktının törədilməsinə səbəb və şəraitin araşdırılmasının zəruriliyini vurğulayıb.

Sonda hər iki tərəf bu cinayət işinin nəzarətdə saxlanmasına və qarşılıqlı hüquqi yardım çərçivəsində əməkdaşlıq edilməsinə dair razılıq əldə ediblər.

# <u>Q.KARASİN:</u> "Rusiya Azərbaycanı dost ölkə və strateji tərəfdaş kimi qəbul edir"

"Rusiya Azərbaycanı dost ölkə və strateji tərəfdaş kimi qəbul edir". Bu fikri Rusiya Federal Məclisi Federasiya Şurasının Beynəlxalq məsələlər komitəsinin sədri Qriqori Karasin AZƏRTAC-a söyləyib.



O qeyd edib ki, Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova ilə Rusiya Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko arasında olan şəxsi səmimi münasibətlər iki ölkə arasında əlaqələrə də müsbət təsir göstərir.

"Rusiya-Azərbaycan əlaqələrinin tarixi uzaq əsrlərə gedib çıxır və rəsmi Moskva Azərbaycanı özünün dostu, strateji tərəfdaşı hesab edir. Biz hazırda mürəkkəb geosiyasi dövrdə yaşayırıq və Rusiya dostlarının, tərəfdaşlarının qədrini bilir. Rusiya qonşu ölkələrlə sabit münasibətlərin qorunub saxlanmasına tərəfdardır", - deyə siyasətçi bildirib.

Q.Karasin Milli Məclisin Sədri Sahibə Qafarovanın Moskvaya səfərinin əhəmiyyətini vurğulayaraq qeyd edib ki, bu cür səfərlər məsələlərin konstruktiv ruhda həllinə şərait yaradır.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri ilə görüşüb





Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində bu ölkənin Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.







Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan parlament nümayəndə heyətini səmimiyyətlə salamlayan Federasiya Şurasının Sədri ölkələrimiz arasında münasibətlərin bütün sahələr üzrə yüksəlişdə olduğunu bildirib. O, ölkələrimiz arasında gündəliyin iki ölkənin dövlət başçıları tərəfindən müəyyən olunduğunu bildirərək deyib ki, münasibətlərimiz mehriban qonşuluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir.

Əlaqələrimizin genişləndirilməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın uğurlu fəaliyyətini də qeyd edən Valentina Matviyenko bildirib ki, bu fəaliyyət münasibətlərimizə böyük töhfələr verir.

Parlamentlərarası əlaqələrdən danışan Federasiya Şurasının Sədri Milli Məclisin Sədri ilə görüşlərin xoş bir ənənəyə çevrildiyini qeyd edərək bunun qanunverici orqanlarımız arasında əlaqələrin yaxşı göstəricisi olduğunu ifadə edib. Onun sözlərinə görə, qanunverici orqanlarımız arasında əlaqələr səmərəlidir və həm ikitərəfli formatda, həm də beynəlxalq parlament təşkilatları çərçivəsində uğurla inkişaf edir. Valentina Matviyenko deyib ki, Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması ilə parlamentlərarası əlaqələrdə yeni mərhələ başlayacaq.

O, qeyd edib ki, regionlararası əməkdaşlıq ikitərəfli münasibətlərin inkişafında ölkələrimiz arasında xüsusi rol oynayır. Hazırda Rusiya Federasiyasının 70-dən çox subyektinin müəssisələri Azərbaycanla xarici ticarət fəaliyyəti ilə məşğul olur.

Valentina Matviyenko həmçinin Azərbaycan, Rusiya və Ermənistan tərəfindən üçtərəfli razılaşmaların həyata keçirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirən Azərbaycan parlamentinin spikeri Sahibə Qafarova Milli Məclisin Sədri kimi Rusiya Federasiyasına ikinci dəfə rəsmi səfər etdiyini bildirib. O, həm bu səfərin, həm də tərəflər arasında imzalanan anlaşma memorandumunun ikitərəfli münasibətlərimizin parlament ölçüsünün inkişafına təkan verəcəyini bildirib.

Milli Məclisin Sədri xatırladıb ki, ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü tamam olub. Bu illər ərzində Azərbaycanla Rusiya arasında münasibətlər dinamik inkişaf edib. Spiker Sahibə Qafarova Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin əlaqələrimizdə yeni mərhələnin əsasını qoyduğunu diqqətə çatdırıb. O, ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının mühüm rolunu xüsusi vurğulayıb. Qeyd olunub ki, Azərbaycan-Rusiya münasibətləri bir-birinin maraqlarını nəzərə almaqla qarşılıqlı hörmət və etimad prinsiplərinə əsaslanır.

İki ölkə arasında parlamentlərarası münasibətlərə toxunan Milli Məclisin Sədri ikitərəfli əlaqələrin inkişafında qanunverici orqanların özünəməxsus rolunu qeyd edib. O bildirib ki, bu sahədə həm Milli Məclisdə, həm də Federal Məclisdə fəaliyyət göstərən dostluq qruplarının, həmçinin Milli Məclis və Federal Məclis arasında daimi fəaliyyət göstərən ikitərəfli parlamentlərarası komissiyanın işi təqdirəlayiqdir. Deputatlarımız bir çox təşkilatlarda, o cümlədən MDB Parlament Assambleyası çərçivəsində birgə fəaliyyət göstərirlər. Spiker qanunverici orqanlarımız arasında əlaqələrin genişlənməsində parlament komitələri arasında əməkdaşlığın da rolunu qeyd edərək deyib ki, bu istiqamətdə təcrübə mübadiləsi və qarşılıqlı fəaliyyət üçün geniş imkanlar mövcuddur.

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi qələbə və öz ərazi bütövlüyünü bərpa etməsindən sonra regionda yaranmış vəziyyət barədə məlumat verən Milli Məclisin Sədri qeyd edib ki, hazırda ölkəmiz işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa-quruculuq işləri aparır. "Yaşıl enerji" zonası elan olunmuş Qarabağ və Şərqi Zəngəzurda yeni qəsəbə və kəndlər salınır. Artıq keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılmasına başlanıb.

Milli Məclisin Sədri xatırladıb ki, Azərbaycan Ermənistanla normallaşma prosesinin təşəbbüskarı olmuş və beynəlxalq hüququn 5 əsas prinsipi əsasında Ermənistana sülh sazişinin imzalanmasını təklif etmişdir. Sülhün əldə olunması hamıdan çox Ermənistanın özünə lazımdır. Lakin Ermənistan danışıqlarda destruktiv mövqe nümayiş etdirir və üçtərəfli bəyanatların tələblərini açıq-aşkar pozaraq öz silahlı qüvvələrini Azərbaycan ərazisindən tamamilə çıxarmayıb, regionda bütün iqtisadi və nəqliyyat əlaqələrinin açılmasının qarşısını alır.

Görüşdə son dövrlər Laçın yolu ətrafında mövcud olan vəziyyətlə bağlı geniş məlumat verən Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan üçtərəfli Bəyanata ciddi riayət edir və sənəd üzrə bütün öhdəlikləri tam yerinə yetirib. Üçtərəfli Bəyannamənin 6-cı bəndinə əsasən, Azərbaycan Laçın yolu boyunca hər iki istiqamətdə vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hərəkətinin təhlükəsizliyinə təminat verir.

Bununla yanaşı, spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, Ermənistan iki ildən artıqdır ki, Laçın yolundan mina, hərbi sursat, şəxsi heyət və talan edilmiş təbii sərvətlərin daşınması üçün istifadə edir. Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan Respublikası ərazilərində qeyri-qanuni iqtisadi fəaliyyətə, habelə təbii sərvətlərin istismarına və Laçın yolundan sui-istifadə hallarına qarşı Azərbaycan vətəndaşlarının etiraz aksiyaları onların qanuni hüququdur və etirazçıların haqlı tələblərinin yerinə yetirilməsi zəruridir. Spiker Sahibə Qafarova qeyd edib ki, Laçın yolunun guya Azərbaycan tərəfindən bağlanması, Azərbaycan torpaqlarında yaşayan erməni sakinlərinin blokadaya məruz qalmaları, guya humanitar böhran yaranması ilə bağlı Ermənistan tərəfinin bəyanatları tamamilə əsassızdır. Laçın yolu boyunca hər gün onlarla nəqliyyat vasitələrinin, sülhməramlı kontingentin maşınlarının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, erməni təcili yardım maşınlarının hərəkəti erməni tərəfinin əsassız iddialarını təkzib edir. Beləliklə, bütün bunlar sübut edir ki, Ermənistan beynəlxalq ictimaiyyəti aldatmaq məqsədilə manipulyasiya ilə məşğuldur.

Milli Məclisin Sədri həmçinin İran İslam Respublikasında Azərbaycan səfirliyinə qarşı törədilən terror aktı, diplomatik korpusun bir nəfər əməkdaşının həlak olması və iki nəfər əməkdaşının yaralanması haqqında da məlumat verib. Spiker deyib ki, Azərbaycan bu terror hücumunun ədalətli araşdırılmasını və günahkarların layiqli şəkildə cəzalandırılmasını tələb edir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

***"Azərbaycan"***



# Azərbaycanın qlobal enerji bazarında mövqeyi güclənir

*Əvvəli 1-ci səh.*

Paralel olaraq, ümumi səmərəliliyi artırmaq üçün "Azərbaycan" İES-in 7-ci və 8-ci enerji bloklarının mövcud buxar turbinləri zəmanətli əsaslarla modernləşdirilərək 1280 meqavatlıq yeni stansiya ilə əlaqələndiriləcək. Bunun da nəticəsində ümumi güc 1880 meqavat təşkil edəcək. Bu da il ərzində 0,8-1,2 milyard kubmetr qaza qənaət etməyə imkan verəcək.

Qeyd edək ki, respublikamızda generasiya güclərinin artırılması Prezident İlham Əliyevin inkişaf siyasətinin prioritetlərindən birini təşkil edir. Təsadüfi deyil ki, regionların inkişafına dair dövlət proqramlarında bununla bağlı vəzifələr və hədəflər qarşıya qoyulub. Bu illərdə ölkəmizin müxtəlif yerlərində kiçik su-elektirk stansiyaları, o cümlədən modul tipli stansiyalar da tikilib ki, onlar da artan iqtisadi potensiala adekvat olaraq respublikamızın yüksəlişinə böyük töhfələr verir. "Azərbaycanda bütövlükdə elektroenergetika sahəsi son illər ərzində çox sürətlə və uğurla inkişaf etmişdir. Son 20 il ərzində Azərbaycanda 34 elektrik stansiyası inşa edilmişdir və bu stansiyaların generasiya gücü təqribən 3400 meqavata bərabərdir. Sadəcə olaraq, müqayisə üçün deyə bilərəm ki, hazırda bizim ümumi generasiya gücümüz 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılmışdır. İndi təsəvvür edin, əgər biz bunu etməsəydik, əgər bu məsələni prioritet seçməsəydik, bu gün bizim iqtisadi və sənaye inkişafımız sual altında ola bilərdi. Bu gün biz öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik", - deyə Prezident İlham Əliyev bildirib.

## Hədəfdə "yaşıl enerji"dir

Hazırda prioritetlərdən biri də "yaşıl" və hidrogen enerji güclərinin artırılmasıdır. Respublikamızda bu sahədə enerjinin əldə edilməsi üçün böyük mənbələr və imkanlar var. Ona görə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də də "yaşıl enerji" ilə bağlı hədəflər müəyyən olunub. O cümlədən işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması qarşıda duran mühüm vəzifələr sırasındadır. Yuxarıda adıçəkilən "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının və Qaradağ Günəş-Elektrik Stansiyasının inşası bu hədəflərə doğru atılan addımlardır.

Prezident İlham Əliyev təməlqoyma mərasimində bu barədə danışaraq qeyd etdi ki, yaxın vaxtlarda üçüncü stansiyanın da inşası başlayacaq və bu, təqribən 240 meqavat əlavə güc verəcək. "Hazırda xarici investorlarla imzalanmış sənədlər əsasında 25 qiqavata qədər günəş və külək-elektrik enerjisi stansiyalarının inşası nəzərdə tutulur- böyük hissəsi Xəzər dənizində, bir neçəsi isə quru sahələrdə. Yəni bu, doğrudan da, çox böyük potensialdır və təkcə Xəzər dənizinin külək enerjisi potensialı 157 qiqavata bərabərdir", - deyə Prezident İlham Əliyev bildirib.

Respublikamızın əsas hədəflərindən biri də Avropaya elektrik enerjisinin ixracıdır. Artıq ötən ilin dekabrında Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" də imzalanıb. Fevralın 3-də Bakıda "Yaşıl Enerji" Məşvərət Şurası çərçivəsində nazirlərin 1-ci iclası keçirilib. 1280 MVt gücündə istilik-elektrik stansiyasının təməlinin qoyulması bir daha göstərir ki, Azərbaycan tezliklə Avropaya həm də elektrik enerjisi ixrac edəcək.

## Azərbaycan-İtaliya münasibətlərinin göstəricisi

Təməli qoyulan yeni layihə Azərbaycan-İtaliya münasibətlərinin yüksək səviyyədə olmasının, strateji tərəfdaşlığa əsaslanmasının göstəricisidir. Məlum olduğu kimi, Azərbaycanın Avropa İttifaqına üzv olan ayrı-ayrı ölkələrlə də münasibətləri strateji xarakter daşıyır. Onların sırasında İtaliya ilə münasibətlərin xüsusi yeri var. Ona görə də Prezident İlham Əliyevin qeyd etdiyi kimi, İtaliya şirkətinin bu stansiyanın inşasında iştirakı təsadüfi deyil.

Azərbaycanla İtaliya arasındakı yaxın münasibətlər 44 günlük Vətən müharibəsi dövründə də öz təsdiqini tapmışdı. Xatırladaq ki, müharibə günlərində İtaliyada Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörməti əks etdirən sənədlər qəbul edilmişdi. Hərbi əməliyyatlar dövründə həmrəylik və dəstək mövqeyi İtaliya mətbuatında daha intensiv xarakter almışdı. Artıq keçmişdə qalmış Qarabağ münaqişənin həlli ilə bağlı ədalətli mövqe sərgiləyən İtaliyanın 44 günlük Vətən müharibəsi dövründə ortaya qoyduğu mövqe ölkəmizdə yüksək qiymətləndirilmişdir.

Müharibə zamanı Azərbaycanın ədalətli mövqeyini qətiyyətlə dəstəkləyən İtaliya şirkətləri hazırda Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasında və bərpasında fəal iştirak edirlər.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, İtaliya-Azərbaycan əlaqələri təkcə iki ölkənin deyil, böyük coğrafiyanın maraqlarını təmin edir. "Onu da bildirməliyəm ki, bizim əməkdaşlığımız təkcə energetika sahəsi ilə məhdudlaşmır. İtaliya Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Hazırda Bakıda Azərbaycan-İtaliya Universitetinin yeni binası inşa edilir. Azad edilmiş torpaqlarda bərpa-yenidənqurma işlərində İtaliya şirkətləri çox fəal iştirak edirlər - dini abidələrin bərpası və tikintisi, qələbə muzeylərinin tikintisi və dizaynı. Yəni bu, doğrudan da, çox strateji tərəfdaşlıqdır və əlbəttə ki, bugünkü mərasim bunu bir daha göstərir", - deyə Prezident İlham Əliyev təməlqoyma mərasimində bildirib.

Hər ötən il, hər ötən ay tariximizə yeni uğurlarla həkk olunur. Azərbaycanın müstəqillik dövrünün ən böyük İES-nin təməlinin qoyulması bunu təsdiq edir. Beləliklə, neftin və təbii qazın ardınca Azərbaycan elekrtik enerjisinin də ixracatçısına çevrilmək yolunda qətiyyətli addımlar atır. Bu baxımdan təməli qoyulan yeni istilik elektrik stansiyası Azərbaycanın qlobal enerji bazarlarında iştirakını daha da gücləndirəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Regionun enerji lideri

## Təməli qoyulan yeni İES respublikamızın enerji təhlükəsizliyinə böyük töhfə verəcək

"Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin".





Bu sözləri Prezident İlham Əliyev fevralın 13-də "Gülüstan" sarayında keçirilən 1280 MVt gücündə istilik-elektrik stansiyasının təməlqoyma mərasimində deyib. Dövlət başçısı bildirib ki, Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaq.

Qeyd edək ki, Azərbaycan son illərdə enerji sahəsində böyük layihələr həyata keçirir, qlobal təşəbbüslərlə çıxış edir. Ölkəmizin enerji potensialı xarici şirkətləri, əcnəbi sərmayədarları Azərbaycana investisiya qoyuluşuna təşviq edir. Energetika sahəsində Avropanın etibarlı tərəfdaşı olan ölkəmizdə "yaşıl enerji" sahəsində də böyük potensial var.

Bu günlərdə təməli qoyulan və müstəqillik dövrünün ən böyük istilik-elektrik stansiyası da elektroenergetika sahəsində yeni imkanlar yaradır. Açılışı 2025-ci ilə planlaşdırılan stansiya ölkəmizin enerji potensialını gücləndirməklə yanaşı, Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq.

## Respublikamız bütün növ enerji mənbələri üzrə aparıcı dövlətə çevriləcək

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Aydın Hüseynov qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan enerji ixrac edən ölkəyə çevrilməkdədir. Ölkəmiz artıq neft və qaz məhsulları ilə yanaşı, enerji layihələrində, o cümlədən bərpaolunan enerji mənbələrinin istismarı və şaxələndirilməsi sahəsində regionun əsas mərkəzi kimi çıxış edir. Deputatın sözlərinə görə, hazırda enerji sahəsində imzalanan sazişlər, yeni enerji güclərinin təməlinin qoyulması Azərbaycanın Avropa regionuna qaz və neft məhsulları ilə yanaşı, gələcəkdə "yaşıl enerji" ixracında da rolunu artıracaq. Respublikamız bölgədə bütün növ enerji mənbələri üzrə aparıcı dövlətlərdən birinə çevriləcək.

Aydın Hüseynov bildirib ki, Mingəçevir şəhərində yeni 1280 meqavat gücündə elektrik stansiyasının təməlinin qoyulması çox əlamətdar hadisədir, bu, ölkəmizin enerji potensialını böyük dərəcədə gücləndirəcək: "Yeni istilik-elektrik stansiyası Mingəçevirin Azərbaycanın elektroenergetika mərkəzi kimi önəmini daha da artıracaq, Qafqazın enerji mərkəzinə çevriləcək. Eləcə də bu stansiyanın inşası Azərbaycanın enerji təhlükəsizliyini gücləndirəcək, bölgədə yüzlərlə yeni iş yerlərinin açılmasına səbəb olacaq. Ən mühüm amillərdən biri odur ki, ekoloji təhlükəsizlik və yaşıl ətraf mühiti strategiyasında yeni imkanlar yaranacaq. Stansiyanın müasir standartlara cavab verməsi nəticəsində karbon qazının miqdarı 2 milyon ton azalacaq, beləliklə, bunun ətraf mühitə də böyük faydası olacaq".

Bərpaolunan enerji ilə bağlı ölkəmizin imkanlarından da bəhs edən deputat bildirib ki, Azərbaycan çox böyük "yaşıl enerji" potensialına da malikdir. Dənizdə külək enerjisinin potensialı 157 qiqavat, quruda külək və günəş enerjisinin potensialı 27 qiqavatdır, işğaldan azad edilmiş torpaqlarda isə bu ehtiyatlar 10 qiqavata yaxındır. Bu resursların istehsalı üçün Azərbaycan dünyanın ən nüfuzlu investorları ilə sazişlər imzalayıb. "Masdar" şirkəti və Azərbaycan Dövlət Neft Şirkəti arasında külək və günəş enerjisi stansiyalarının yaradılmasına dair razılaşma sənədi imzalanıb. Eləcə də "Fortescue" şirkəti ilə əməkdaşlıq sazişinə imza atılıb. Həmçinin "ACWA Power" şirkəti 2,5 qiqavat enerji istehsal edəcək. Bu, onu göstərir ki, Azərbaycan Avropaya həm də "yaşıl enerji" ixrac edə biləcək. Artıq bununla bağlı 2022-ci il dekabrın 17-də Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya arasında Qara dənizin dibi ilə elektrik kabelinin çəkilməsinə dair saziş də imzalanıb və bu marşrut Azərbaycanı bərpaolunan enerji sahəsində də çox mühüm ixrac mənbəyinə çevirəcək.

"Bu, həm də işğaldan azad edilmiş ərazilərimizə xarici investorların bərpaolunan enerji layihələrində iştirakı üçün keçid kimi də qiymətləndirilə bilər. Təməlqoyma mərasimində nüfuzlu xarici şirkətlərin, xüsusilə də İtaliyanın aparıcı şirkətlərinin və "Made in Italy" nazirinin iştirak etməsi enerji sahəsində xarici əməkdaşlıq üçün yeni mərhələyə keçidin göstəricisidir. İtaliyanın "Ansaldo" şirkəti azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda layihələr həyata keçirməyi düşünür və həmin bölgənin enerji potensialının yüksək olması İtaliya şirkətlərinin marağını artırır", - deyə A.Hüseynov əlavə edib.

## Elektrik enerjisi ixracı imkanlarımız artır

Milli Məclisin deputatı, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev Mingəçevirdə tikiləcək istilik-elektrik stansiyasının 1280 meqavat gücündə olacağını xatırladaraq bildirib ki, bununla elektroenergetika sahəsində potensialımız daha da böyüyəcək. Stansiyanın elektroenergetika mərkəzimiz olan Mingəçevirdə tikilməsinə toxunan deputat qeyd edib ki, bu, şəhərin energetika sahəsində rolunu artıracaq: "Cənab Prezident çıxışında bildirdi ki, layihədə Çin və İtaliya şirkətlərinin iştirakı planlaşdırılıb. İtaliya bizim strateji əməkdaşdır. Azərbaycan və İtaliya arasında bununla bağlı iki sənəd imzalanıb. İl ərzində bir çox görüşlər baş tutub, eyni zamanda bu il ərzində İtaliyanın üç naziri Azərbaycana səfər edib".

Rüfət Quliyev deyib ki, Azərbaycan istehsala dünyadakı qabaqcıl texnologiyaları tətbiq edir.

Ümumiyyətlə, Azərbaycan enerji sahəsində son iki ildə böyük addımlar atır. Burada "yaşıl enerji" sahəsində görülən işləri də xüsusilə vurğulamaq lazımdır.

Deputat vurğulayıb ki, Azərbaycan regionda enerji ixrac edən ölkələr arasında öndə gedir. Onun sözlərinə görə, bu, ölkəmizə həm iqtisadi, həm də siyasi güc verir.

"Azərbaycan elektrik enerjisini artıq qonşu ölkələrə, o cümlədən Avropaya ixrac edə bilir. İxrac potensialı, ixracat ildən-ilə artır. Bütün bunlar Prezident İlham Əliyevin praqmatik siyasətinin göstəriciləridir. Bizi dəstəkləyən ölkələri iqtisadi tərəfdən də özümüzə yaxın hesab edirik. İqtisadi layihələrdə maraqlar artanda siyasi dəstək də artır. Bu, beynəlxalq siyasətdə ən uğurlu addımlardan biridir", - deyə R.Quliyev qeyd edib.

Rüfət Quliyev onu da vurğulayıb ki, Azərbaycan energetika sahəsində qlobal layihələr həyata keçirir. Bu, həm ölkəmizin enerji təminatı nöqteyi-nəzərindən, həm də ixracın artması, ölkəyə daha çox xarici valyutanın daxil olması baxımından vacibdir. Bununla da energetika sahəsində imkanlarımız artır.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Ansaldo"nun Azərbaycandakı İES-in inşasında iştirakı təqdirəlayiqdir

İtaliyalı mütəxəssislər "Ansaldo Energia" şirkətinin Mingəçevir şəhərində müstəqillik dövrünün ən böyük istilik elektrik stansiyasının (İES) tikintisində iştirakını yüksək qiymətləndirirlər.

AZƏRTAC xəbər verir ki, İtaliya Metal İşçiləri Federasiyasının baş katibi Kristian Venzano və federasiyanın şirkət üzrə meneceri Andrea Kapoqreso "Azərenerji" və "Ansaldo Energia"nın əməkdaşlığının mühüm hadisə olduğunu bildiriblər.

Mütəxəssislər qeyd ediblər ki, Azərbaycandan alınan sifarişlər, şübhəsiz ki, "Ansaldo Energia"nın mükəmməlliyini təsdiqləyən müsbət əlamətdir. Hökumət hər mənada şirkətə diqqət yetirməli, həmçinin keçid üçün milli enerji planını sürətləndirməlidir. "Ansaldo" bu mərhələdə tamamilə mərkəzi rol oynamalıdır və biznes planı üzrə konkret addımlar atılmalıdır. Şirkət enerji keçidində hökumət üçün strateji olmalıdır və hökumətin bu yolda davam edəcəyini gözləyirik".

İtaliya Metal İşçiləri Federasiyasının metal və maşınqayırma sənayesi işçilərini təmsil edən həmkarlar ittifaqının üzvü Roberto D'Andrea və ittifaqın Genuya üzrə baş katibi Stefano Bonazzi isə bildiriblər ki, "Ansaldo Energia" ilə "Azərenerji" arasında müqavilənin imzalanması Genuya zavodu üçün vacib sifarişi təsdiqləyən müsbət əlamətdir.

Qeyd edək ki, "Azərenerji" və "Ansaldo Energia" imzaladığı dəyəri 160 milyon avro olan müqavilə çərçivəsində İtaliya şirkəti 1280 meqavat gücündəki yeni elektrik stansiyasını 4 qaz turbini ilə təchiz edəcək. 170 il əvvəl təsis olunan və mərkəzi ofisi İtaliyanın Liquriya regionunun paytaxtı Genuya şəhərində yerləşən "Ansaldo Energia" şirkəti 80 ölkədəki layihələrdə iştirak edib.

# *Yevgeni MİXAYLOV:* "Avropa İttifaqının Ermənistanda "mülki" missiyası yalnız NATO-nun maraqları naminə kəşfiyyatla məşğul olacaq"

"İrəvanın xahişi ilə Fransa jandarmlarının regiona gəlişinin gözlənilməsi mütləq mənada fitnəkarlıqdır. Mənim fikrimcə, onlar hamısı yalnız NATO-nun maraqları naminə, Rusiya və Azərbaycanın maraqlarına zidd kəşfiyyatla məşğul olacaqlar. Mən əsla şübhə etmirəm ki, İrəvan çox böyük səhvə yol verib".



Rusiyalı politoloq, millətlərarası münaqişələr üzrə mütəxəssis, təhlükəsizlik məsələləri üzrə ekspert Yevgeni Mixaylov bu fikri AZƏRTAC-ın müxbiri ilə söhbətində Ermənistan-Azərbaycan sərhədinə Aİ missiyasının tərkibində 8 fransız jandarmının göndərilməsi barədə xəbərləri şərh edərək söyləyib.

Avropa Parlamentinin Fransadan olan deputatı, Fransanın Avropa məsələləri üzrə sabiq naziri Natali Luazo Ermənistan kütləvi informasiya vasitələrinə müsahibəsində Avropa İttifaqının Ermənistana daha geniştərkibli missiya göndərmək qərarını tamamilə dəstəklədiyini bildirib. Onun sözlərinə görə, fevralın 20-dən işə başlayacaq həmin missiya "ərazidə yeni hücumlardan çəkindirən gözlər və qulaqlar" olacaq. Deputat vurğulayıb ki, həmin missiyanın tərkibinə Fransadan 8 jandarm daxil olacaq.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov da bu xəbərə münasibət bildirib. Səfir deyib ki, Aİ-nin Ermənistana göndərəcəyi missiya sadə müşahidə missiyasından hərbi iştiraka çevrilə bilər.

Y.Mixaylovun sözlərinə görə, RF Dövlət Dumasının spikeri Vyaçeslav Volodin bu günlərdə heç də təsadüfən eyhamla bildirməyib ki, Qarabağ probleminin həllinə Aİ-ni cəlb etməyə çalışanlar dövlət subyektliyini itirə bilərlər. Agentliyin müsahibi vurğulayıb: "Maraqlıdır, İrəvan heç də kiçik statusa malik olmayan rusiyalı siyasətçinin birbaşa eyhamını başa düşə biləcəkmi? Mənim fikrimcə, Ermənistanda ya Rusiya-Ermənistan münasibətlərinin nə qədər mürəkkəbləşdiyini hələ anlamırlar, ya da Qərbə tərəf qəti seçim ediblər. Əgər belədirsə, qoy onlar öz milli təhlükəsizlik maraqlarının qarantının sonrakı fəal hərəkətlərindən inciməsinlər, çünki hələlik Moskvanın müttəfiqi, əslində isə onun qatı düşməni Rusiyanın cənub sərhədlərində sabitliyi pozmamalıdır".

Ekspertin fikrincə, indiki zaman kəsiyində qətiyyətlə demək olar ki, Avropa İttifaqının himayəsi ilə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasına dair danışıqlar düyünə düşüb.

Rusiyalı politoloq əmindir: "Baş verən hadisələri başqa cür şərh etmək olmaz. İrəvan 2020-ci ilin noyabrında öz üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən müxtəlif bəhanələrlə tam imtina edir. O vaxt baş nazir Nikol Paşinyan tamamilə darmadağın edilməkdən qorxaraq Rusiyanın zəmanəti ilə barışıq sənədini imzaladı. Amma sonra nə oldu: Moskva son 2 ildə bu tərəfdaşının yalançılığını heyrətlə müşahidə edir. İrəvan sühməramlılarla bağlı fitnəkarlıqları davam etdirir, KTMT-ni bu münaqişəyə cəlb etmək üçün dəfələrlə cəhd göstərib və ən qəribəsi, Ermənistan-Azərbaycan sərhədində nəzarət məqsədilə Aİ missiyasını cəlb etməyə çalışır. Yeri gəlmişkən, bu sərhəd indiyə qədər tam demarkasiya edilməyib və beləliklə, Ermənistan tərəfindən yeni fitnəkarlıqlar üçün hər cür şərait yaradılıb. Aİ missiyasına erməniпərəst Fransa tərəfindən kuratorluq edilməsini, Fransanın dəfələrlə anti-Azərbaycan ritorikası nümayiş etdirməsini nəzərə alaraq, yüz faiz əminliklə deyə bilərik ki, provokasiyalar baş verəcəyi təqdirdə "missionerlər" Azərbaycanı təqsirkar hesab edəcəklər".

# Azərbaycanın turizm imkanları İsraildə təbliğ edilir

Dövlət Turizm Agentliyi (DTA) və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə İsrailin Təl-Əviv şəhərində keçirilən Beynəlxalq Aralıq dənizi Turizm Bazarı (IMTM) sərgisində ölkəmizin turizm imkanları təqdim olunur.

DTA-dan AZƏRTAC-a bildirilib ki, sərgidə Azərbaycan Turizm Bürosu ilə yanaşı, "Azərbaycan Hava Yolları" QSC, "Şahdağ" Turizm Mərkəzi və Dağ Yəhudiləri Muzeyi də daxil olmaqla ümumilikdə 14 yerli turizm və qonaqpərvərlik sənayesi nümayəndəsi iştirak edir.

Ziyarətçilər Azərbaycanın tarixi, mədəni irsi, milli mətbəx nümunələri, adət-ənənələri, dağ-xizək mərkəzləri, şərabçılıq, qolf, sağlamlıq, dağ və qış turizmi imkanları ilə yanaşı, ölkəmizdəki qədim yəhudi irsi haqqında ətraflı məlumatlandırılırlar.

Sərgi çərçivəsində İsraildən və digər iştirakçı ölkələrdən olan təmsilçilərlə ikitərəfli görüşlər və media nümayəndələri ilə müsahibələr təşkil edilir.

Məlumat üçün bildirək ki, 2022-ci ildə Azərbaycana 23 min 935 nəfər İsrail vətəndaşı səfər edib.

Bununla yanaşı, 14-17 fevral tarixlərdə Azərbaycan Turizm Bürosunun nümayəndə heyəti İsraildə keçirilən Qlobal Turizm İnnovasiya Forumunda iştirak edir. Forumda təmsil olunmaqda əsas məqsəd "Slou Fud" Böyük Qafqaz səyahət marşrutunun interaktiv xəritəsinin yaradılmasıdır.

Qeyd edək ki, 2021-ci ildən İsraildə Azərbaycanın turizm nümayəndəliyi fəaliyyət göstərir.



# Heydər Əliyev İli 2023



# Qurub-yaratdıqları sabaha hesablanırdı

**"Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür"**

**Heydər ƏLİYEV**

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə tikinti kompleksinin inkişafına xüsusi önəm vermişdir. SSRİ dönəmində məhz Ulu Öndərin səyi ilə respublikada tikintinin maddi-texniki bazası möhkəmləndirilmiş, çoxsaylı sənaye müəssisələri, yaşayış evləri, sosial obyektlər istifadəyə verilmişdir. Azərbaycanın müstəqilliyi dövründə bu iş nəhəng layihələrlə davam etdirilmişdir. Ən başlıcası həm də odur ki, bu işlərin hamısı sabaha, gələcəyə hesablanmışdır və biz indi onların bəhrəsini görürük.

Azərbaycanda tikintiyə maraq XIX əsrin ortalarından başlasa da, sovet dönəmində bu sahədə digər respublikalardan geridə qalırdıq. Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etməyə başladığı 1969-cu ilə qədər vəziyyət beləcə davam etmişdir. 1969-1982-ci illər sahənin intensiv inkişaf etdiyi, yeni proqramların qəbul edildiyi, ixtisaslı kadrların yetişdirildiyi dövr olmuşdur.

Tikinti kompleksinin inkişafında Ulu Öndərin 1971-ci ilin iyul ayında keçirdiyi Azərbaycan KP MK-nın plenumu xüsusi rol oynamışdır. Burada tikintidəki vəziyyət ətraflı təhlil olunmuş, nöqsanlar göstərilmiş, sonra isə onların aradan qaldırılması üçün konkret tədbirlər planı hazırlanmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründə tikinti sektorunda uzun müddət məsul vəzifələrdə çalışmış və hazırda Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri olan iqtisadiyyat üzrə fəlsəfə doktoru Eldar Nuriyev həmin illəri belə xatırlayır: "İlk növbədə tikintinin idarə olunmasının təkmilləşdirilməsinə dair təşkilati tədbirlərin görülməsi tələb olunurdu. Ümummilli Lider bu məqsədlə Tikinti Nazirliyinin bazasında Sənaye Tikinti Nazirliyini yaratdı. Sənaye və Kənd Tikinti nazirliklərinin, aparıcı podrat təşkilatların rəhbərlərini yeni, bacarıqlı kadrlarla əvəz etdi, bütün sifarişçi nazirlık və idarələrdə tikinti üzrə müavin vəzifəsi yaratdı. Bakı Baş Tikinti İdarəsi müstəqil təşkilat kimi fəaliyyətə başladı. Sahədəki vəziyyət vaxtaşırı müzakirə olunurdu. Ulu Öndər hər il ümumi sahəsi 1 milyon kvadratmetr olan yaşayış evlərinin istifadəyə verilməsini qarşıya bir vəzifə kimi qoymuşdu. Bunun üçün təkcə Bakı Baş Tikinti İdarəsi deyil, şəhərdəki bütün tikinti idarələri gərgin işləyirdi. Tikinti-quraşdırma işləri iki, bəzən üç növbədə aparılırdı. Əmək kollektivləri arasında böyük ruh yüksəkliyi vardı".

Beləliklə, əgər SSRİ dövrünün 1920-1968-ci illərində (1941-1945-ci illəri çıxmaqla) Azərbaycanda ildə orta hesabla ümumi sahəsi 447 min kvadratmetr olan yaşayış evləri istifadəyə verilmişdisə, 1968-1982-ci illərdə bu rəqəm 1,6 milyon kvadratmetr olmuşdur. Müqayisə edilən dövrdə şagird yerləri və çarpayı sayı iki dəfə çox olan məktəblər və xəstəxanalar tikilmişdir.

İnşaat kompleksində görülən işlərin hamısı Ulu Öndərin diqqət mərkəzində idi. Buna görə də tikintidə göstəricilər dəfələrlə artmışdı. Kür su kəməri, "Neftçilər" və "Nizami" metrostansiyaları, Yeni Bakı Neftayırma Zavodunun emal kompleksi, Bakı Məişət Kondisionerləri Zavodu və daha onlarca müəssisə və obyekt məhz bu dövrdə inşa edilmişdir. Kür su kəməri əsl ümumxalq tikintisinə çevrilmişdi, odur ki, qısa müddətdə istifadəyə verilmişdi, nəticədə Bakı və Sumqayıt şəhərlərinin su təchizatı xeyli yaxşılaşmışdı.

Ulu Öndər Heydər Əliyevin tikinti sahəsində həyata keçirdiyi quruculuq işləri də məhz sabaha hesablanmışdı. Götürək elə Ulu Öndərin əvəzsiz yadigarlarından biri olan Bakı Dərin Özüllər Zavodunu (BDÖZ). İndi Ümummilli Liderimizin adını şərəflə daşıyan bu müəssisə olmasaydı, Azərbaycanın nəhəng neft-qaz layihələrinin hər biri illərlə ləngiyərdi. BDÖZ-ün Bakıda tikilməsi məhz Heydər Əliyevin gərgin mübarizəsi ilə mümkün olmuşdur.

Respublikanın Əməkdar inşaatçısı Abid Şərifov "Heydər Əliyev İşığı - İpək Yolu" kitabında tikinti sahəsinin inkişafının Ulu Öndərin rəhbərliyi dövrü ilə bağlı olduğunu vurğulayaraq yazır: "1985-ci ildə Bakı şəhərində Dərin Özüllər Zavodu istifadəyə verildi. Cənab Heydər Əliyevin incə, qətiyyətli siyasəti sayəsində bu zavod Bakıda tikildi. Bu nəhəng tikintinin əhəmiyyəti, mən deyərdim ki, doğma Azərbaycan müstəqillik qazandıqdan sonra daha çox qiymətləndirildi. Əgər bu zavod Bakıda tikilməsəydi, "Əsrin müqaviləsi"nin imzalanmasına Qərb ölkələri elə də çox canfəşanlıq göstərməzdilər... Dərin Özüllər Zavodunun qiyməti, əhəmiyyəti bu gün daha böyük masştabla ölçülür".

Bu dövrdə kənd təsərrüfatı obyektlərinin tikintisinə də xüsusi diqqət yetirilirdi. Şəki, Salyan rayonlarında, Bakının Binə və Ramana qəsəbələrində ilk dəfə olaraq heyvandarlıq kompleksləri istifadəyə verildi.

Moskvada rəhbər vəzifələrdən birində işlədiyi - SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olduğu zaman da Ulu Öndər Azərbaycanın tikinti kompleksindən köməyini əsirgəmədi. Məsələn, Moskvada fəaliyyət göstərən tikinti və layihələndirmə üzrə baş elmi-tədqiqat layihə institutlarının Bakıda yerləşən laboratoriya və şöbələrinin bazası əsasında 1984-cü ildə müstəqil Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu yaradıldı.

Ulu Öndər xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra respublikanın inşaat kompleksinə, eləcə də tikintinin maddi-texniki bazasının sürətlə inkişaf etdirilməsinə xüsusi diqqət ayırmışdır. Tikintidə bazar münasibətlərinə keçidlə bağlı geniş proqram hazırlanmışdır, sahədə əhəmiyyətli islahatlar aparılmışdır.

Məlumdur ki, iqtisadiyyatın digər sahələrinin inkişafı tikinti ilə bilavasitə bağlıdır. Ümummilli Lider bu amili ölkəyə rəhbərliyinin ikinci dövründə də diqqət mərkəzində saxlamışdır. Bir sözlə, Heydər Əliyevin qurub-yaradan bir lider olduğu bütün dünyaya məlumdur. Bu barədə çox danışılıb, çox yazılıb və bundan sonra da yeni tədqiqatlar aparılacaq, mövzu dönədönə işıqlandırılacaq. Bununla belə, Ulu Öndərin müəllifi olduğu möhtəşəm bir layihənin - üçüncü minilliyin nəhəng mühəndis qurğusu Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin adını çəkmək istərdik. Bu kəmərin çəkilişi də məhz Heydər Əliyevin gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində mümkün olmuşdur. Tikintinin təməlini də 2002-ci il sentyabrın 18-də Bakı yaxınlığındakı Səngəçal terminalında Ümummilli Liderin özü qoymuşdur.

Bu gün Azərbaycanın çəkdiyi beynəlxalq yolların və dəhlizlərin, tikdiyi hava və ticarət limanlarının, saldığı körpülərin başlanğıcında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri dayanır. Prezident İlham Əliyev 2006-cı ildə BTC tam sistem kimi istifadəyə verilərkən onun mühüm əhəmiyyət daşıdığını qeyd edərək deyib: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

İndi bunların hamısı bir reallıqdır. Ulu Öndərin uzaqgörənliklə dediyi "Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür" sözləri bugünkü həyatımızda özünü çox aydın göstərir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Heydər Əliyev mübarizlik və vətənpərvərlik nümunəsidir



Dahi dövlət xadimi, tarixi şəxsiyyət Heydər Əliyevin fəaliyyətinin hər bir dönəmi özündən sonra tədqiqatçılar və siyasi analitiklər tərəfindən dərindən araşdırılır. Yeni nəsillər üçün onun fəaliyyət uğurunun mahiyyətini tapmaq və yeni dövrlərin problemlərinin həllində eyni siyasi texnologiyalardan istifadə etmək olduqca vacib bir məsələdir.

SSRİ kimi nəhəng bir imperiyanın daxilində kiçik bir respublikanın qısa bir zamanda inkişafına nail olmaq unikal bir hadisə oldu. Eyni zamanda nəzərə alınsa ki, Azərbaycanın inkişafı sovetlər üçün heç də prioritet bir vəzifə deyildi və bölgənin orta səviyyədə inkişafı diqqətdə idi.

Heydər Əliyev bu münasibəti dəyişə və milli respublikanın inkişafında böyük uğurlar əldə edə bildi. Məhz bu uğurlara görə idi ki, Moskva Azərbaycan liderinin potensialından istifadə etmək qərarına gəldi və onu keçmiş SSRİ-nin rəhbərlərindən biri kimi yüksəkliyə qaldırdı. Heydər Əliyevə qədər Şərq xalqlarından belə yüksək siyasi olimpə qalxa bilən olmamışdı.

Heydər Əliyevə uğurlar qazandıran əsas amillər onun şəxsi keyfiyyətləri və prioritetləri düzgün müəyyənləşdirə bilməsi idi. Sadə xalqın içərisində böyüyən, ziyalılarla çox yaxın münasibətlərdə olan Ulu Öndər Azərbaycan xalqının tarixinə, problemlərinə yaxşı bələd idi və bütün gücü ilə mənsub olduğu xalqının inkişafına çalışırdı.

Təhlükəsizlik orqanlarında fəaliyyəti ilə o, həmin strukturu cəmiyyəti cəzalandıran təşkilatdan cəmiyyəti qoruyan bir quruma çevirə bildi. Eyni zamanda təhlükəsizlik orqanlarına çox sayda vətənpərvər və intellektual səviyyəsi yüksək olan milli kadrların cəlb edilməsini təmin etdi. Bu səbəbdən ötən əsrin 60-80-ci illərində Azərbaycanda ziyalılar sərbəst fikir söyləyə, yığılıb qalmış ağır problemlərin həlli məsələlərini cəsarətlə hakimiyyət qarşısında qaldıra bilirdilər.

Heydər Əliyevin fəaliyyəti və şəxsi qayığısı ilə onun birinci siyasi hakimiyyəti dövründə Azərbaycanda çox sayda diqqəti çəkən elm, mədəniyyət və incəsənət nümunələri yaradıldı və onların SSRİ və dünya səviyyəsində tanıdılmasına nail olundu. Dünya Heydər Əliyevin sayəsində Azərbaycanı daha dərindən tanımağa başladı.

Heydər Əliyev respublikanı aqrar sənaye bölgəsindən sənaye aqrar bölgəsinə çevirə bildi. 1969-1982-ci illərdə Azərbaycanda 250 yeni sənaye müəssisəsi salındı, altı yeni universitet açıldı, 600 orta məktəb inşa edildi. Dinamik inkişaf paytaxt Bakıdan regionlara keçdi, qeyri-neft sektorunun inkişafına ciddi diqqət yetirildi. Azərbaycan sənayesi və iqtisadiyyatı üçün yeni olan sahələr meydana gəldi. Regionlarda yerləşən Gəncə, Mingəçevir, Əli-Bayramılı, Lənkəran, Şəki, Salyan şəhərləri sənaye və təhsil mərkəzləri kimi yeni simalar aldılar.

Heydər Əliyev Azərbaycan gənclərinin hərb işinə cəlb edilməsi üçün ciddi işlər gördü. 1971-ci ildə Bakı şəhərində general Cəmşid Naxçıvanski adına Hərbi Lisey açıldı. Azərbaycan Rusiyadan sonra hərbi məktəbin fəaliyyət göstərdiyi ikinci milli respublika oldu. Bu imkan sayəsində minlərlə Azərbaycan gənci zabit olaraq xalqımızı layiqincə təmsil etdi. Bu həm də gələcək müstəqil Azərbaycanın Silahlı Qüvvələrinin zabit korpusunun təşkili demək idi.

Heydər Əliyev xalqımızın zəngin mədəniyyətinə yaxşı bələd idi və onun inkişafına və təbliğ edilməsinə xüsusi diqqət edirdi. Onun təşəbbüsü ilə digər müttəfiq respublikalarda vaxtaşırı Azərbaycan mədəniyyət və incəsənət dekadaları keçirilir və mədəniyyətimizin tanınmış nümayəndələri geniş auditoriyaları xalqımızın mədəni sərvətlərinin incəlikləri ilə tanış edə bilirdilər.

Heydər Əliyev birinci siyasi hakimiyyəti dövründə respublikanın ərazi bütövlüyünün qorunması üçün maksimum səylər göstərdi. Məhz bunun sayəsində o dövrdə erməni millətçiləri Azərbaycan torpaqlarından bir qarış da olsa qoparmağa nail ola bilmədilər. Ulu Öndərin təhlükəsizlik orqanlarında və sovet Azərbaycanına rəhbərliyi dövründə əldə etdiyi ən böyük nəticə isə Azərbaycan cəmiyyətinin bütövlükdə sağlam milli düşüncəyə malik olması və hər kəsin özünü torpaq üçün məsul hiss etməsi idi.

Məhz bu səbəbdən erməni millətçiləri sovet rəhbəri Qorbaçovla birləşib Heydər Əliyevi böyük siyasətdən uzaqlaşdırdılar.

Azərbaycanın dövlət müstəqilliyinin qorunması və itirilmiş torpaqların geri qaytarılması üçün uğurlu siyasətin aparılması isə Heydər Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra mümkün oldu. Bu böyük tarixi hadisəni dahi siyasətçinin siyasi kursunu prinsipial şəkildə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev edə bildi.

***Aydın MİRZƏZADƏ,***
***Milli Məclisin deputatı***

# Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyində (RİNN) Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş tədbir keçirilib.







Nazirlikdən AZƏRTAC-a bildirilib ki, tədbirdə nazirliyin Aparat rəhbərinin müavini, Yeni Azərbaycan Partiyasının (YAP) ərazi ilk partiya təşkilatının sədri Asif İsmayılov, nazirin müşaviri Rəşad Bayramov və YAP-ın Səbail rayon təşkilatının sədri Muxtar Nağıyev çıxış ediblər. Muxtar Nağıyev Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yaradılan Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli inkişaf yolundan bəhs edərək, Ulu Öndərin Azərbaycanın müstəqilliyi ilə bağlı gördüyü işlər haqqında danışıb. YAP-ın bütün sahələrdə mühüm rolunu qeyd edən M.Nağıyev Prezident İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın əldə etdiyi tarixi nailiyyət və 44 günlük qələbəni də diqqətə çatdırıb.

Sonra nazirliyin Aparat rəhbərinin müavini, nazirliyin YAP ərazi ilk partiya təşkilatının sədri Asif İsmayılov çıxış edərək, YAP-ın uğurlu siyasi fəaliyyətindən bəhs edib, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən "Heydər Əliyev İli" ilə bağlı bir sıra tədbirlərin keçiriləcəyini vurğulayıb. Nazirin müşaviri Rəşad Bayramov RİNN-in əməkdaşı olan YAP üzvlərini "Heydər Əliyev İli" çərçivəsində keçiriləcək tədbirlərdə yaxından iştiraka dəvət edib. R.Bayramov eyni zamanda çıxışında nazirliyin dəyərləri haqqında ətraflı məlumat verib.

Tədbirdə nazirliyin YAP-a yeni üzv qəbul olunmuş 12 əməkdaşına üzvlük vəsiqəsi təqdim edilib.

Hərbiləşmiş Mühafizə İdarəsinin əməkdaşı Məhərrəm Məhərrəmli və Dövlət Radiotezliklər İdarəsinin əməkdaşı Rza Abbasov Yeni Azərbaycan Partiyasının Səbail rayon təşkilatının ictimai-siyasi həyatında və "Heydər Əliyev İli" çərçivəsində fəal iştirakına görə fəxri fərmanla təltif olunublar.

# Bir yumruq, bir ürək, bir can



# Hər şəhərdən, hər məhəllədən, hər evdən...

## Azərbaycanın hər yerindən Türkiyəyə yardım göndərilir

*Əvvəli 1-ci səh.*

Fəlakətin ilk saatlarından etibarən Azərbaycan dövlətinin və xalqının Türkiyəyə yardım üçün səfərbər olması iki ölkənin qardaşlığının sarsılmazlığından xəbər verir. "Bir millət, iki dövlət" deyimi yalnız sözdə deyil, əməllərdə təsdiqini tapır.

### Qardaşlıq nümunəsi

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib ki, Türkiyədə baş vermiş, əsrin fəlakəti adını almış zəlzələlərin fəsadlarının aradan qaldırılması "bir millət, iki dövlət" anlayışının daha da möhkəmliyini ortaya qoydu. Təsadüfi deyil ki, bu gün Azərbaycan xalqının, eləcə də dünya azərbaycanlılarının 85 milyonluq türk millətinin yanında olmalarına, dağıntılar meydanında necə savaş aparmalarına şahidlik edirik.

"Şükürlər olsun, əsrlər boyu Azərbaycan və Türkiyə arasında davam edən və nəsildən-nəslə ötürülən bu qardaşlıq və doğmalıq duyğuları tarixin müxtəlif sınaqlarında hər zaman özünü doğruldub. Bu gün Türkiyənin dağıntılar altında qalmış əyalətlərində türkiyəli qardaşlarımızla birgə azərbaycanlıların da səfərbər olması, onların cani-könüldən dəstək göstərmələri misilsiz qardaşlıq nümunəsidir. Əlbəttə ki, ölkəmizin hər bölgəsindən edilən yardımlar, sıravi vətəndaşların qardaş payları, hər kəsin gücü çatan köməyi əsirgəməməsi əmr və tapşırıqlarla həyata keçirilə bilməz. Əgər xalqımızın hər bir nümayəndəsinin ürəyindən kömək əli uzatmaq keçməsəydi, çətin ki belə böyük miqyaslı yardım kampaniyalarının şahidi olardıq", - deyə komitə sədri bildirib.

Zahid Oruc qeyd edib ki, bu gün Türkiyədə izlədiyimiz qardaşlıq nümunəsinin eynisini 100 illər əvvəl Çanaqqala döyüşlərində də görmüşük: "O zaman xalqımızın say-seçmə oğullarının istiqlal uğrunda necə savaş verdiklərini bilirdik. Eləcə də Türkiyənin 1918-ci ildə Bakının xilası üçün verdiyi canları unutmaq mümkün deyil. Bu tarixi hadisələrin hər biri əbədiləşib, xalqlarımızın yaddaşında özünə dərin kök salıb. Zaman-zaman həmin kök cücərir və bu, hər bir azərbaycanlının qardaş duasında öz əksini tapır".





Komitə sədrinin sözlərinə görə, bu günlərdə 90-dan çox dövlətin xilasediciləri Türkiyədə ağır fəsadların aradan qaldırılması üçün çalışır, dağılmış binaların altında qalmış insanlara, eləcə də digər yaralılara yardım etmək istəyirlər: "Burada ən önəmli məsələ yer silkələnəndə heç kimin sığortalı olmadığını başa düşməkdir. Hər bir yardım insani müstəvidə həyata keçirilməlidir. Belə ağır məqamlarda düşmənçiliklər, siyasi maraqlar və başqa siyasi savaşlar kənara qoyulmalıdır. Türkiyənin dağıntılara məruz qalması bizə bunun əsl nümunəsini göstərdi: Yunanıstandan tutmuş Ermənistana, eləcə də ABŞ və ən ucqar Avstraliyaya qədər, demək olar ki, bütün dövlətlər qardaş ölkəyə kömək əlini uzatdı. Lakin bu sırada Azərbaycanın yeri birincidir".

Zahid Oruc bildirib ki, bu yardımlar Azərbaycan dövlətinin və xalqının nə qədər dəyanətli və mətin olduğunu bir daha sübut edir: "İndi hər kəsə daha aydın olur ki, əslində, Şuşa zirvəsinin fəthi təkcə hərbi mahiyyət daşımır, Azərbaycan və Türkiyə xalqlarının həyatın ən çətin sınaqlarına belə, birlikdə sinə gərə bilmə gücü var. Bu gün Azərbaycan xalqı öz tikəsini türkiyəli qardaşları ilə bölüşməkdən məmnunluq duyur".

### Türkiyə bu sınaqdan da üzüağ çıxacaq

Milli Məclisin deputatı Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır: "İki dost və qardaş ölkə - Azərbaycanla Türkiyə tarixin bütün dövrlərində sevincli və kədərli günlərdə bir-birinin yanında olublar. Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatının və yaralıların olması Azərbaycan xalqını dərindən kədərləndirib, qardaş Türkiyənin dərdinə şərik çıxıb. Sadə vətəndaşdan tutmuş dövlət və özəl qurumlara qədər hər kəs zəlzələ baş verdiyi ilk gündən Türkiyəyə dəstək olmağa çalışır. Yardımlar ilk dəfə paytaxtın Babək prospektində toplanmağa başlansa da, bu kampaniya sonra daha böyük məkanda, Heydər Əliyev adına İdman Konsert Kompleksində davam etdirildi. Azərbaycan vətəndaşları Türkiyədə zəlzələdən zərərçəkmişlərə yardım üçün hətta uzaqda yerləşən yaşayış məntəqələrindən belə yardım toplanma məntəqələrinə axın edirlər. Vətəndaşlarımız ehtiyac duyulan nə varsa, onu da göndərməyə çalışırlar".

Deputat bildirdi ki, Azərbaycanın dövlət və özəl qurumları yardım aksiyalarına fəal qoşulublar: "Qısa müddətdə yardım aksiyası böyük bir hərəkata çevrilib. Prezident İlham Əliyevin bilavasitə tapşırıq və göstərişi ilə hazırda Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər. Azərbaycandan qardaş ölkəyə davamlı olaraq həkimlər, xilasedicilər, könüllülər göndərilir. Azərbaycan sona qədər Türkiyənin yanındadır. İki qardaş ölkə bu sınaqdan da üzüağ çıxacaq.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***





## FHN-in zəlzələ bölgəsindəki qərargahında növbəti toplantı keçirilib

Məlumat verildiyi kimi, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələri Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını davam etdirir.




Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu çərçivədə Kahramanmaraş rayonu ərazisində təşkil edilmiş FHN-in xilasetmə qüvvələrinin qərargahında fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin iştirakı ilə növbəti toplantı keçirilib.

Toplantıda hazırkı əməliyyat şəraiti, əldə edilmiş nəticələr müzakirə edilib. Həmçinin atılacaq növbəti addımlar, o cümlədən göndərilən humanitar yardımların məntəqələrə çatdırılması və təhvil verilməsi məsələləri nəzərdən keçirilib, müvafiq tapşırıqlar verilib.

## Türkiyənin Səhiyyə və Müdafiə nazirliklərinin nümayəndələri FHN-in mobil səhra hospitalında olublar

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə qardaş ölkəyə göndərilmiş Fövqəladə Hallar Nazirliyinin (FHN) mobil səhra hospitalları zəlzələnin ciddi zərər vurduğu Kahramanmaraşda fəaliyyətini davam etdirir.



Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, fevralın 14-də Türkiyə səhiyyə nazirinin müavini Tolqa Tolunay və Müdafiə Nazirliyi Tibb xidməti rəisinin müavini general-mayor Durmuş Aydemir FHN-in mobil səhra hospitalında olub, burada yaradılmış şəraitlə, həmçinin hospitalda müalicə olunan yaralı və xəstələrin vəziyyətləri ilə maraqlanıblar. T.Tolunay və D.Aydemir hospitallarda yaradılmış şəraiti yüksək qiymətləndirib, göstərilən dəstəyə görə Azərbaycan dövlətinə təşəkkür ediblər.

## FHN-in növbəti humanitar yardımından ibarət üçüncü avtomobil karvanı Türkiyəyə çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Türkiyədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə fevralın 11-də yola salınmış Fövqəladə Hallar Nazirliyinin (FHN) növbəti humanitar yardımını aparan 9 yük avtomobilindən ibarət üçüncü karvan bu gün qardaş ölkəyə çatıb.




Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Kahramanmaraşa gələn çadır və qızdırıcılardan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.

## "Ziraat Bank Azərbaycan" AFAD fonduna 100 min ABŞ dolları məbləğində dəstək oldu

"Ziraat Bank Azərbaycan" fevralın 6-da Türkiyənin cənub-şərqində baş vermiş dəhşətli zəlzələdə maddi və mənəvi zərər çəkən və yaralanan sakinlərə yardım məqsədilə AFAD hesabına 100 min ABŞ dolları məbləğində ianə edib.

AZƏRTAC xəbər verir ki, bank hadisənin baş verdiyi ilk gündən etibarən qardaş ölkə ilə həmrəyliyini, onlara dəstək olduğunu müxtəlif yollarla göstərib. "Ziraat Bank Azərbaycan" fəlakətin baş verdiyi ilk gündən etibarən filialları və rəqəmsal platformaları vasitəsilə AFAD hesabına edilən köçürmələri komissiyasız və ƏDV-siz icra edib. Həmçinin bank həmvətənlərimizin ianəetmə üsulları ilə aydın şəkildə tanış olaraq köçürmələrini rahat icra etmələri üçün fərqli izahedici videotəlimatlar hazırlayaraq sosial media kanallarında paylaşıb. Qeyd edək ki, "Ziraat Bank Azərbaycan" AFAD qurumunun Azərbaycanda hesab açmasına dəstək verərək ianələrin daha tez və rahat çatdırılmasına vasitəçi olub. Bankın kollektivi maddi yardımla yanaşı, toplanılan humanitar yardımda da iştirak edib, onların təhvil verilməsində öz dəstəyini göstərib.

"Ziraat Bank Azərbaycan" ASC Türkiyəyə məxsus, 159 illik tarixə malik olan "Ziraat Maliyyə Qrupu"nun tərkib hissəsidir və Azərbaycan Mərkəzi Bankı tərəfindən verilmiş 30 dekabr 2014-cü il tarixli lisenziya əsasında fəaliyyət göstərir. Bank korporativ və pərakəndə bankçılıq sahəsində məhsul və xidmətlərini Bakı, Gəncə və Sumqayıt şəhərlərində yerləşən ümumi 7 filialı ilə yanaşı, rəqəmsal satış və xidmət platformaları üzərindən də müştərilərə təqdim edir.

Bankın təqdim etdiyi məhsul və xidmətlər haqqında daha ətraflı məlumatı bankın feysbuk, instaqram, tviter, linkedin sosial media hesablarından və ya *9229 qısa nömrəsinə zəng edərək əldə edə bilərsiniz.

## Könüllülərimiz Türkiyədə fəaliyyətlərini davam etdirirlər







Baş vermiş dəhşətli təbii fəlakətdən zərər çəkən qardaş türk xalqına kömək məqsədilə Kahramanmaraşa yollanan Azərbaycan könüllüləri ötən gün fəal şəkildə çalışıblar.

Gənclər Fondunun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Kahramanmaraş şəhərinin mərkəzində Azərbaycan könüllüləri çadır qərargah məntəqəsinin salınmasını başa çatdırıb və paylama (təminat) mərkəzini qurublar. Bundan əlavə, Azərbaycan könüllü gəncləri şəhərin müxtəlif ərazilərində yerləşən yemək paylama mərkəzlərində yeməklərin çeşidləmə, paketləmə və paylama prosesində fəal iştirak ediblər. Həmçinin könüllülərimizin bir qrupu yerli əhalinin mobil telefonları üçün enerji təminatına imkan yaradan enerji yükləmə mərkəzində xidməti həyata keçiriblər. Eləcə də tibb təhsilli könüllülərimiz Türkiyə Gənclər Fondunun (TÜGVA) səyyar aptekində xidmət göstərib, habelə TÜGVA-nın yaxınlıqdakı zərərçəkmiş kəndlərə göndərilən səyyar qrupların tərkibində səfər edib, müvafiq yardımların paylanmasında fəal şəkildə iştirak ediblər.

Qeyd edək ki, könüllü nümayəndə heyətimiz Türkiyə Respublikası Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) 10 min nəfər zərərçəkmiş şəxsin yerləşdirildiyi çadır düşərgəsində də olublar. Növbəti günlərdə gigiyenik malların paylanılması və uşaqların əylənməsi və psixoloji yardım almaları üçün 2 ədəd iri çadırımızın həmin düşərgədə quraşdırılması razılaşdırılıb.

Həmçinin könüllü nümayəndə heyətimiz Türkiyədə olan Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinin (FHN) qərargahına baş çəkib, səlahiyyətli şəxslərlə müvafiq görüş keçirib və əlaqələndirmə müzakirələri aparıblar.

Ötən gün ərzində Azərbaycan Gənclər Fondunun rəhbərliyi ilə bir daha görüşən TÜGVA rəhbərliyi könüllülərimizin göstərdikləri fədakarlığa görə təşəkkürlərini bildirib. Görüş zamanı Azərbaycan könüllüləri ilə Türkiyə könüllüləri arasında fəaliyyətlərin effektiv əlaqələndirilməsi üzrə geniş müzakirələr aparılıb.



## Xilasedicilər dağıntılar altında 198 saat qalmış 2 qardaşı sağ çıxarıblar



Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən, Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər.

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, FHN-in xilasediciləri zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində həyata keçirdikləri axtarış-xilasetmə əməliyyatları nəticəsində dağıntılar altından 51 nəfəri sağ, 655 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

Axtarış-xilasetmə əməliyyatları xüsusi texniki vasitələr, habelə xilasetmə itlərinin tətbiq edilməsi ilə davam etdirilir.

* * *

Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan FHN-in xilasedicilərinin Türkiyə və Belarusdan olan həmkarları ilə birgə həyata keçirdikləri xüsusilə mürəkkəb xilasetmə əməliyyatı nəticəsində Kahramanmaraşda dağıntılar altında 198 saat qalmış 2 qardaş - 17 yaşlı Muhammed Enes və 21 yaşlı Abdulbaki sağ çıxarılıblar.

# Bir yumruq, bir ürək, bir can



## Səfir Ali Kaan ORBAY: "Türkiyədə zəlzələnin ilk günündən ən çox və tez yardım göndərən Azərbaycan olub"

"Türkiyədə zəlzələ baş verən gündən Azərbaycan dövləti və Gürcüstanda yaşayan azərbaycanlılar daim bizim yanımızda olublar. Bu, əsl qardaşlığın, bir millət, iki dövlət olmağımızın sübutudur".

Bu sözləri AZƏRTAC-a Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay söyləyib.

Səfir deyib ki, Türkiyədə baş verən müdhiş faciənin ilk günündən ən çox və ən tez yardım göndərən Azərbaycan olub. Gürcüstanda yaşayan azərbaycanlılar da əsl qardaşlıq nümayiş etdirirlər. Bu, başqa ölkələr üçün də nümunədir.

"Mən bu dəstəyə, köməyə görə qardaş Azərbaycan xalqına, şəxsən Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya, eləcə də Gürcüstanda yaşayan azərbaycanlılara minnətdarlığımı bildirirəm", - deyə Ali Kaan Orbay vurğulayıb.

Onun sözlərinə görə, Gürcüstanda yaşayan azərbaycanlılar, eləcə də gürcü dostlar bu günə qədər Türkiyədə zəlzələdən zərərçəkən insanlar üçün xeyli humanitar yardım toplayıblar. Bu da eyni zamanda Azərbaycan-Türkiyə-Gürcüstan dostluğunun, qardaşlığının bariz nümunəsidir.

## Yasamal bələdiyyəsi Türkiyəyə humanitar yardım göndərib




Türkiyədə baş verən dağıdıcı zəlzələ nəticəsində zərər çəkmiş insanlara soydaşlarımızın yardım kampaniyası davam edir. Humanitar yardım kampaniyası çərçivəsində bu gün paytaxtın Yasamal bələdiyyəsinə aid yük avtomobili Türkiyəyə yola salınıb.

Bakı Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, Yasamal bələdiyyəsinin sədri Tahir Məmmədov göndərilən ləvazimatların əsasən isti paltarlar, istilik vasitələri, uzun müddət saxlanılması mümkün olan qidalar, uşaq yeməkləri, qablaşdırılmış qidalar, tibbi və gigiyenik ləvazimatlar və digər zəruri əşyalar olduğunu qeyd edib.

Onun sözlərinə görə, humanitar yardım kampaniyasına həm Yasamal rayonunun sıravi sakinləri, həm də rayonda fəaliyyət göstərən sahibkarlar və vətəndaş cəmiyyətinin fəalları qoşulublar. "Bir millət, iki dövlət" şüarı ilə Yasamal bələdiyyəsinin təşəbbüsü nəticəsində toplanan humanitar yardım faciə bölgəsində zərər çəkmiş vətəndaşlara çatdırılacaq.

## Kədərimiz də sevincimiz kimi bölünməzdir

Ölkəmiz matəm içindədir. Hamı hüznlüdür. Üzlərdə kədər, gözlərdə yaş hər kəs bir can yanğısı ilə qardaş və bacılarımıza yardım, əlindən gələni etməyə tələsir.



Fevral ayının 6-da Türkiyədə baş vermiş zəlzələ qardaş ölkəni təbii fəlakətin ağır fəsadları ilə üz-üzə qoyub. Təbii fəlakət 10 vilayəti yerlə-yeksan edib. Əsrin fəlakəti adlandırılan zəlzələ 6000-dən artıq binanın dağılmasına, 30 mindən çox insanın həyatını itirməsinə, 100 mindən artıq insanın yaralanmasına və hələ sayı bilinməyən neçə-neçə insanın dağıntılar altında qalmasına səbəb olub.

Bu ağır gündə dünyanın əksər ölkələri Türkiyədən köməyini əsirgəmir. Lakin qardaş yanğısı ilə fəlakətin baş verdiyi regiona ilk köməyə çatan və bu gün də gecəli-gündüzlü Türkiyə ilə bir yerdə olan Azərbaycandır. Prezident İlham Əliyevin göstərişinə əsasən, faciənin ilk günlərindən Fövqəladə Hallar Nazirliyinin çevik xilasetmə qüvvələri hadisə yerinə göndərilib. Bu gün onlar dağıntıların baş verdiyi ən çətin ərazilərdə xilasetmə işlərini yerinə yetirirlər. Azərbaycan xilasediciləri indiyəcən onlarla insanı dağıntılar altından sağ-salamat çıxarıblar. Azərbaycan Ordusunun səhra hərbi hospitallarının tibb personalı isə gecəli-gündüzlü yaralıları həyata qaytarmaqla məşğuldur.

Bu günlər qəlbimizi yandıran, bizi duyğulandıran, hətta Türkiyə mediasının da gözündən yayınmayan mənzərələr görürük, hadisələr yaşayırıq. İndi Azərbaycanda hər kəsin bu acını öz içində hiss etməsi, əlindən gələn köməyi əsirgəməməsi, sözün əsl mənasında, qardaşlıq nümunəsidir. Yardımla dolu köhnə avtomobilində köməyə tələsən laçınlı Sərvər Bəşirli bu gün dünya mediasının da gündəminə çevrilib. Qarlı-buzlu günlərdə Yardımlıda əl arabası ilə, Borçalıda çiynində yorğan-döşək daşıyan, Ağdamda öz xəz üst geyimini çıxarıb yardım aparanlara "Bunu da aparın, mən buradan öz isti evimə gedəcəm" deyən ana-bacılarımızı, illərlə köçkünlük həyatı yaşamış soydaşlarımızı gördükcə qürur keçiririk.

Əslində biz ağdamlılar belə bir faciəni 31 il əvvəl yaşamışıq. Qəddar düşmən fevralın 25-dən 26-na keçən gecə xocalıları evlərindən didərgin salanda, meşələrdə, yollarda ölümə məhkum edəndə eyni acını çəkdilər. Həmin gün də ağdamlılar çörək, paltar götürüb xocalıların köməyinə tələsirdilər. Mənim də gücüm evimizdə adıma alınan cehizliyimə çatmışdı. Yanan evə dimdiyində su daşıyan quşlar kimi əlimdən başqa nə gələrdi ki...

Bizim o zaman yaşadıqlarımız da "zəlzələ" idi. Həmin illər qarabağlılar, şərqi zəngəzurlular çox faciələr yaşadılar. Yaxşı xatırlayıram, Xocalı soyqırımı zamanı Ağdama gətirilən cəsədlərin sayı o qədər çox idi ki, kəfən çatışmırdı. Ağdam məscidinin axundu camaata çağırış edəndən sonra hər kəs evindəki təzə, işlənməmiş ağ mələfələri məscidə daşıdı.

İndi də xalqımız birləşib. Türkiyənin belə bir ağır günündə Azərbaycanın elə bir rayonu yoxdur ki, köməyə can atmasın. Həmçinin məşəqqətli yol keçmiş xocalılılar da kənarda qalmayıblar. Kosalar kənd tam orta məktəbinin müəllim və texniki işçiləri öz maddi və mənəvi dəstəkləri ilə yardım kampaniyasına qoşulublar. Məktəbin müəllimi Vəsilə Quliyeva deyir ki, bu, hər birimizin qardaşlıq və insanlıq borcudur. Azərbaycan və Türkiyə bir candır, kədərimiz, sevincimiz bölünməzdir.

Əslən Xocalıdan olan Əməkdar jurnalist Səriyyə Cəfərova isə göz yaşları içərisində duyğularını belə ifadə edir: "Bu millətin çox böyük dərdi varmış. Günlərdi qəlbimiz qan ağlayır. İsti yatağımızdan utanırıq, yemək bişirmək istəmirik. Axı qanı qanımızdan olan qardaşlarımız, bacılarımız daşın, betonun altında qalıb. Nə əlimiz çatır, nə ünümüz yetir. Düz 31 il öncəki kimi... Kətik meşəsində, Xocalının içində doğmalarımız, əzizlərimiz qaldı. İllərdir fevral ayı kabus olub bizlərə. Bu il isə Xocalı dərdimizin üstünə bir dərd də gəldi. Mingəçevirdə yaşayan əmim oğlu mənə zəng edib zəlzələdə valideyinlərini itirmiş bir uşağı himayəyə götürmək istədiyini bildirdi. Dedi ki, ona özüm baxacam, yaralarını sarımağa çalışacam, ürəyimi soyutmaq, təsəlli tapmaq istəyirəm. Əmim oğlu Xocalı faciəsində 3 qardaşını itirib. Qardaşlarının qəbirləri də yoxdu ki, təsəlli tapsın. O da təsəllini bu uşaqla tapmaq istəyir".

Bəli, dərdlər tükənmək bilmir. Nə yaxşı ki, heç olmasa insanlıq da tükənmir. Birlik, insanlara can yandırmaq, harayına çatmaq, ağır günlərin mənzərəsi olub acı versə də, etiraf edək ki, həm də insana insan olduğunu xatırladır, xeyirxah duyğuları oyadır. Çünki o zaman insan özü olur, dualarını ürəkdən edir və daxili rahatlıq tapır.

Türkiyədə baş verən zəlzələnin acısı bizə yad deyil. İki dövlət, bir millət olan bizlərə bu, necə yad ola bilər ki?! Allahdan şəhidlərimizə, bu ağır təbii fəlakətdə dünyasını dəyişən qardaş-bacılarımıza, körpələrə, qocalara rəhmət diləyir, yaralılara şəfa arzulayırıq! Biz səninləyik, Türkiyə!

*Zəkurə QULİYEVA,*
*"Azərbaycan"*

## Türkiyədə zəlzələ bölgəsindən 513 nəfər Azərbaycan vətəndaşı təxliyə olunub

Türkiyədə baş vermiş zəlzələdən zərər çəkmiş Azərbaycan Respublikası vətəndaşlarının müəyyən edilməsi və onlara kömək göstərilməsi istiqamətində işlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində, ölkəmizin Türkiyədəki səfirliyində, İstanbul və Qars şəhərlərindəki baş konsulluqlarında yaradılmış Operativ qərargahlar tərəfindən Türkiyə Respublikasının Daxili İşlər, Milli Təhsil və Səhiyyə nazirlikləri, eləcə də digər qurumlarla intensiv əməkdaşlıq şəraitində davam edir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, zəlzələnin baş verdiyi gündən etibarən 513 nəfər Azərbaycan Respublikası vətəndaşı və onların yaxın ailə üzvləri olan xarici ölkə vətəndaşları zəlzələ bölgəsindən Azərbaycana təxliyə olunub. Zəlzələnin baş verdiyi Kahramanmaraş, Hatay, Adana, Malatya, Adıyaman, Qaziantep, Şanlıurfa, Osmaniyə, Kilis və Diyarbakırda təxliyə prosesi davam etməkdədir.

"Eyni zamanda zəlzələ bölgəsində yaşayan və ya müvəqqəti məskunlaşan, Azərbaycan Respublikasına təxliyə edilmək niyyətində olmayan vətəndaşlarımızın diqqətinə çatdırırıq ki, zərər görmüş əraziləri tərk etmək istəyənlər üçün müvafiq vilayətlərdə jandarma bölmələri tərəfindən təxliyə məntəqələri yaradılıb (təxliyənin həyata keçiriləcəyi yerlərin siyahısı əlavə olunur). Bu məntəqələrə müraciət edənlərin Türkiyənin təhlükəsiz bölgələrinə təxliyəsi Türkiyənin aidiyyəti qurumları tərəfindən ən uyğun hesab edilən vasitələrlə təmin edilir. Fəlakət bölgəsini fərdi nəqliyyat vasitələri ilə tərk etmək istəyənlər ərazini tərk etmədən öncə yerlərdəki təxliyə məntəqələrini bununla bağlı xəbərdar etdikdən sonra təyinat şəhərlərindəki sığınacaq məntəqələrinə istiqamətləndiriləcəklər.

## Malatyada dağıntılar altında qalan azərbaycanlı tələbələrin hamısının meyitləri tapılıb

Malatyada dağıntılar altında qalan dörd azərbaycanlı tələbənin hamısının cəsədi tapılıb.

AZƏRTAC xəbər verir ki, meyitlərin üzərində tibbi ekspertiza aparılıb və onların Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə olduğu müəyyən edilib.

Fevralın 6-da Türkiyədə baş vermiş və çoxsaylı insan tələfatına səbəb olmuş zəlzələ qurbanları arasında Malatya şəhərindəki İnönü Universitetinin tələbələri olan Samir Quliyev, Şahin Vəliyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadə haqqında zəlzələ baş verdiyi vaxtdan dünənədək heç bir məlumat yox idi. Onların yaşadığı bina zəlzələnin təsirindən ağır dərəcədə dağıntıya məruz qalıb.

## Xaricdə yaşayan azərbaycanlılar qardaş Türkiyəyə yardım üçün birləşiblər





Avstraliya İttifaqında fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları və fəalları Türkiyədə baş verən dəhşətli zəlzələ ilə əlaqədar yardım kampaniyasına başlayıb.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Avstraliya İttifaqında yaşayan soydaşlarımız tərəfindən ümumilikdə 5300 AUD (6265 manat), o cümlədən Sidneydən 3535 AUD, Brizbondan 780 AUD, Pert, Melburn və Balarat şəhərlərindən isə ümumilikdə 1000 AUD məbləğində pul vəsaiti toplanaraq Türkiyənin həmin ölkədəki səfirliyinə və Oxfam GB xeyriyyə təşkilatına təqdim olunub.

Avstraliyanın Brisben və Gold Cost şəhərlərində isə Türkiyədəki zəlzələ qurbanlarının anım mərasimləri keçirilib. Kvinslenddə Azərbaycan Milli Assosiasiyasından bildirilib ki, anım mərasimlərində ştatın hökumət başçısı, müxalifət liderləri, şəhərlərin merləri, yerli ictimaiyyətin, türk və Azərbaycan icmalarının nümayəndələri iştirak ediblər.

Türkiyənin Dövlət Himninin səsləndirilməsi ilə başlayan mərasimlərdə zəlzələ qurbanlarının xatirəsi ehtiramla yad edilib və ruhlarına dualar oxunub. Mərasimlərin təşkilatçısı - Türkiyənin Kvislenddəki fəxri konsulu Turqut Menli çıxış edərək dağıdıcı təbii fəlakətin və itkilərin miqyasına diqqəti cəlb edib. Bu ağır gündə Türkiyənin yanında olan dövlətlərə və xalqlara, tədbirlərdə iştirak edən Azərbaycan və Şimali Kipr icmalarına minnətdarlığını bildirib.

Nəzərə çatdırıb ki, Gold Cost şəhərində Berra Sezginin təşkilatçılığı ilə türk və Azərbaycan icmaları tərəfindən 5000 dollar pul toplanaraq dərhal zəlzələ bölgəsinə göndərilib. "Mən Berra Sezginə və onu bu kampaniyada dəstəkləyən azərbaycanlı qardaşlarıma da təşəkkür etmək istəyirəm", - deyə Turqut Menli vurğulayıb.

* * *

Azərbaycanlılar Türkiyədə dağıdıcı zəlzələ baş verən ilk gündən qardaş ölkənin yanındadırlar. Bütün respublika üzrə təşkil olunan yardımtoplama məntəqələrinə sakinlər ərzaq malları, geyim, dərman vasitələri və s. gətirirlər. Bu təşəbbüsü Azərbaycan diasporunun təmsilçiləri, o cümlədən Tatarıstanda yaşayan soydaşlarımız da dəstəkləyirlər.

"Tatarıstan" İctimai Birliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Tatarıstandan "Türkiyəyə yardım" təşəbbüs qrupunun inzibatçılarından biri, Tatarıstan Respublikasının Leninoqorsk şəhərinin və Leninoqorsk rayonunun "Birlik" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Ramiz Məmmədov qardaş Türkiyə xalqına yardım qrupunun fəaliyyəti barədə informasiya ilə bölüşüb.

O deyib: "Fevralın 7-də "Birlik" təşkilatı adından Türkiyənin Kazan şəhərindəki baş konsulu İsmet Erikana bu ölkədə dağıdıcı zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı başsağlığı məktubu göndərilib.

Elə həmin gün Azər Babayevin təşəbbüsü sayəsində platformalardan birində "Türkiyəyə yardım" adlı qrup yaradıldı. Bu qrupun inzibatçılarından hər biri öz yaxınlarına, Tatarıstan azərbaycanlılarından olan dost və tanışlarına dəvət göndərərək, onları qrupa əlavə edib. İştirakçılar maliyyə vəsaiti köçürür eləcə də Türkiyənin Kazandakı diplomatik nümayəndəliyinə zəruri əşyalar gətirirlər".

Qrupun məqsədi Türkiyənin Kazandakı baş konsulluğu vasitəsilə zəlzələdən zərərçəkənlərə zəruri əşyaların göndərilməsini, pulların operativ şəkildə toplanmasını təşkil etməkdir.

"Hazırda qrupda 600-ə yaxın iştirakçı var, onların əksəriyyəti Kazandan, Tatarıstanın şəhər və bölgələrindəndir. Qrup üzvlərinin sayı saatbasaat artır.

Bu çətin vaxtda Tatarıstanın "Türkiyəyə yardım" Azərbaycan təşəbbüs qrupu adından və şəxsən öz adımdan zəlzələ nəticəsində həlak olanların ailələrinə başsağlığı verir, yaralananların tezliklə sağalmalarını arzulayıram", - deyə "Birlik" təşkilatının sədri bildirib.





# Bütün bölgələrimiz qardaş ölkə üçün səfərbərdir




## Daşkəsən

Daşkəsən rayonunun idarə və müəssisələrinin, eləcə də ictimaiyyətin nümayəndələri Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Gəncədəki Baş konsulluğun qarşısında yaradılan guşəni ziyarət edərək, önünə gül dəstələri düzmüş, həlak olanların xatirəsinə ehtiramlarını bildirmişlər.

Rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztopla görüşmüş, Daşkəsən ictimaiyyəti adından qardaş Türkiyə xalqına dərin hüznlə başsağlığı vermiş, konsulluqdakı matəm kitabına ürək sözlərini yazmışdır.

Görüş zamanı diqqətə çatdırılmışdır ki, faciə ilə əlaqədar bütün Azərbaycan xalqı, o cümlədən daşkəsənlilər Türkiyədə baş verən zəlzələdən əziyyət çəkən bacı-qardaşlarımıza dəstək olmaq üçün əllərindən gələni edirlər. Hazırda böyükdən-kiçiyə bütün daşkəsənlilər qardaş ölkə üçün humanitar yardıma qoşulmuşlar.

Sonra elektrik generatorlarından, qızdırıcılardan, yorğan-döşək dəstlərindən, isti geyimlərdən, çarpayılardan, ərzaq məhsullarından, gigiyenik vasitələrdən və digər zəruri avadanlıqlardan ibarət humanitar yardım Gəncədə təyin edilmiş məntəqəyə təhvil verilmişdir.




## Qazax

Türkiyədə baş vermiş zəlzələ nəticəsində yaşanan faciə, minlərlə insanın həyatını itirməsi və yaralanması Azərbaycanda da dərin üzüntü ilə qarşılanmışdır.

Təbii fəlakət baş verən andan Azərbaycan dövləti və xalqı bu ağır gündə qardaş ölkənin tək olmadığını bəyan etmişdir. Ardınca acı faciənin fəsadlarının aradan qaldırılması üçün ən yüksək səviyyədə təxirəsalınmaz tədbirlər həyata keçirilmiş, qardaş türk xalqına humanitar yardım göstərilməsinə başlanmışdır.

Belə bir çətin günlərdə qazaxlılar da qardaş ölkə üçün başlanan humanitar yardıma qoşulmuşlar. Qısa vaxt ərzində Türkiyənin zəlzələ bölgəsinə 300 yorğan, 100 döşək, 300 yastıq, 211 elektrik qızdırıcısı, qida məhsulları, dərman preparatları, həmçinin kişi və qadınlar üçün geyimlər və s. Türkiyəyə yola salınmışdır. Humanitar yardım toplanması davam edir.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*




## Tərtər

Tərtərlilər də Türkiyədə baş vermiş zəlzələdən ziyan çəkmiş bölgələrə yardım aksiyasına qoşulublar.

Rayonda fəaliyyət göstərən "Vəkiloğlu" MMC, ayrı-ayrı iş adamları, şəhid anaları, qazilər, müxtəlif təbəqələrdən olan insanlar zəlzələ baş vermiş bolgəyə qış paltarları, yataq, yorğan-döşək dəstləri, zəruri gigiyenik vasitələr və ərzaq yardımları toplayıblar. Toplanan yardımlar xüsusi ayrılmış nəqliyyat vasitəsilə Tərtərdən Gəncə şəhərində yerləşən Türkiyə konsulluğuna yola salınıb. Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov deyir ki, Azərbaycan Türkiyədə baş verən zəlzələyə ilk reaksiya verən ölkə oldu, xalqımız bu ağır günlərdə türk qardaş və bacılarının yanında olduğunu nümayiş etdirdi. Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın tapşırığı ilə Türkiyəyə həm insanların dağıntılar altından çıxarılması üçün xilasedicilər, həm də humanitar yardımlar göndərildi.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*




## Qəbələ

Fevralın 6-da qardaş Türkiyədə baş vermiş və böyük dağıntılara, on minlərlə insan itkisinə səbəb olmuş güclü zəlzələdən zərərçəkənlərə yardım aksiyasına Qəbələ rayonu da qoşulub.

İcra hakimiyyətindən AZƏRTAC-a bildirilib ki, fevralın 13-də rayon icra hakimiyyəti tərəfindən 4 TIR humanitar yardım Türkiyəyə yola salınıb. Qardaş yardımına zəlzələ bölgəsində daha çox ehtiyac duyulan elektrik generatorları və içməli su daxildir.

## Sumqayıt




Türkiyədə zəlzələdən zərərçəkənlərə dəstək məqsədilə ölkəmizdə həyata keçirilən humanitar yardım kampaniyası davam edir.

AZƏRTAC xəbər verir ki, Sumqayıt sakinləri ilk günlərdən kampaniyada fəal iştirak edirlər. Şəhərin müxtəlif yerlərində yardımların toplanması üçün xüsusi məntəqələr yaradılıb. Hadisə baş verən ilk gündən sumqayıtlıların yardımtoplama məntəqələrinə axını müşahidə olunur. Vətəndaşlar tərəfindən gətirilən yataq dəstləri, isti geyimlər, uşaq bezləri, təmizlik ləvazimatları, konservləşdirilmiş qidalar, quru ərzaqlar, tibbi ləvazimatlar, eləcə də digər zəruri yardımlar məntəqələrdə çeşidlənib və qablaşdırılır.

Sumqayıt Şəhər İcra Hakimiyyəti tərəfindən insanların müvəqqəti yaşaması üçün 22 ədəd konteyner evin zəlzələdən zərər çəkmiş bölgələrə göndərilməsi nəzərdə tutulur.

İcra hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov jurnalistlərə açıqlamasında bildirib ki, həmin konteyner evlərdən ilkin olaraq 4 ədədi, həmçinin 230 min manat dəyərində təqribən 16 ton humanitar yardım Sumqayıtdan birbaşa Türkiyəyə yola salınıb.

Xatırladaq ki, qarşıdakı günlərdə Sumqayıt şəhərindən dəyəri 500 min manata yaxın, ümumi çəkisi 75 ton olan 11 TIR humanitar yardımın göndərilməsi nəzərdə tutulur.

## Hacıqabul, Neftçala, Saatlı, Salyan və Bərdə

Hacıqabul, Neftçala, Saatlı və Salyan rayonlarından Türkiyədə zəlzələdən zərərçəkənlərə humanitar yardım göndərilib.

Bu rayonların icra hakimiyyətlərinin təşkilatçılığı ilə keçirilən yardım kampaniyasına rayon rəsmiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, idarə, müəssisə və təşkilatların nümayəndələri və ictimaiyyət qoşulub. Əsasən isti geyimlər, dərman preparatları, yorğan-döşək, ərzaq və digər məhsullar toplanıb.

Toplama məntəqələrindən iritutumlu maşınlara yüklənən yardım Hacıqabul rayonundan yola çıxıb. Yardım kampaniyası davam edəcək.

Türkiyəyə göndərilən humanitar yardım aksiyasına Bərdə rayonu da qoşulub. Rayondan göndərilən yardım fevralın 13-də Gəncə şəhərində təyin olunmuş məntəqəyə təhvil verilib.

Bərdə rayon icra hakimiyyəti başçısının müavini İlham Məmmədov AZƏRTAC-a bildirib ki, humanitar yardımın içərisində 14 tona yaxın ərzaq məhsulu var. Həmçinin yorğan-döşək, isti geyimlər, qızdırıcı qurğular və generatorlar da göndərilib.

Toplanan yardımlar könüllülər tərəfindən çeşidlənir, qablaşdırılır, avtomobillərə yüklənir və qardaş ölkəyə yola salınır.








## Türkiyədən təxliyə olunan azərbaycanlı: "Deyirlər ki, nə vaxtsa qiyamət günü olacaq, məncə bu hadisə qiyamətin özü idi"




Türkiyənin Kahramanmaraş və ətraf vilayətlərində baş vermiş dağıdıcı zəlzələdə zərərçəkmiş Azərbaycan vətəndaşlarının təxliyə prosesi davam edir. İndiyədək təxliyə olunanlardan biri də Türkiyədə təhsil alan Biləsuvar sakini Türkanə Kazımlıdır.

AZƏRTAC xəbər verir ki, Türkanə Kazımlı iki ildir Türkiyədə təhsil alır. O, zəlzələdən bir gün qabaq Qaziantep şəhərinə qonaq gəlibmiş: "Gecə idi, 4 radələrində yuxudan ayıldım. Gördüm ki, ətrafdakı əşyalar tərpənir. Elə bildim yuxudur. Bunun yuxu olmadığını, zəlzələ baş verdiyini anlayandan sonra məni təlaş bürüdü. Binanın necə silkələndiyini təsəvvür edə bilməzsiniz. Hətta ayaq üstə durmaq mümkün deyildi. Dərhal yerə uzandım. Olduğum mənzil binanın altıncı mərtəbəsində idi. Oradan sağ çıxacağımızı ağlıma belə gətirə bilmirdim. Bina xeyli silkələndi. Evdə pişik var idi, o da özünü ora-bura vururdu. Sonra sanki qiyamət başladı, şəhəri insanların harayı, qışqırtısı bürüdü… O səslər hələ də qulaqlarımdadır".

Zəlzələdən sonra həyətə düşərək boş əraziyə toplaşdıqlarını deyən Türkanə bildirir ki, həmin vaxt ailəsi ona görüntülü zəng edib: "Ailəmi görən kimi ağlamağa başladım. Sağ olduğumu, heç bir xəsarət almadığımı onlara bildirdim və narahat olmamalarını söylədim".

Daha sonra ailəsi ilə əlaqəsi kəsilən T.Kazımlı dərhal şəhəri tərk etməyi düşünüb. Qaziantep avtovağzalına gəlsə də, avtobuslarda boş yerin olmadığını görüb.

"Avtobus sürücüsündən xahiş etdim ki, yer olmasa belə məni də götürsün. Sürücü razılıq verəndən sonra mən Adana şəhərinə yola düşdüm. Bilirdim ki, bu, bir riskdir. Çünki Adanada da vəziyyət yaxşı deyildi. Ona görə telefonumun üstünə adımı və telefon şifrəmi yazmışdım. Bir az gedəndən sonra anidən yol aralandı, avtobus həmin çökəyə düşdü. Sərnişinlər qışqırmağa başladılar. Mən həmin an özümü itirmədim və tez sərnişinləri sakitləşdirməyə başladım. Mənim üçün inanılmaz olsa da, gəlib Adanaya çatdıq", - deyə azərbaycanlı tələbə o dəhşətli anları danışır.

Türkanə Adanaya çatandan sonra oradan da avtobusla Mersinə gedib. Lakin Mersinə çatandan sonra məlum olub ki, onları Adanadan təxliyə edəcəklər. Ona görə də yenidən Adanaya qayıtmalı olub. Türkiyədəki səfirliyimizin köməyi ilə Adanadan təxliyə edilib və sağ-salamat Biləsuvara gəlib çatıb.

"Tələbə yoldaşımız Hatayda dağıntıların altında qalaraq öldü. Həmin hadisələri düşünmək belə məndə həyəcan yaradır. Deyirlər ki, nə vaxtsa qiyamət gələcək, məncə bu hadisə bəlkə də qiyamətin özü idi", - deyir Türkanə.

O, ixtisası psixoloq olduğu üçün yenidən Türkiyəyə qayıdıb, oradakı insanlara psixoloji dəstək göstərmək fikrindədir: "Türkiyədə olanda düşündüm ki, burada qalıb insanlara psixoloji yardım edim. Amma fikirləşdim ki, özüm də sarsıntı və qorxu keçirmişəm. Bu halımla heç kimə yardım edə bilmərəm. Gərək mən özümə gəlim ki, sonra başqasına da yardım edim. İnşallah, yenidən qayıdıb həm təhsilimi davam etdirəcəm, həm də insanlara öz köməyimi göstərəcəyəm".



# Səbrin də bir həddi var...

*Əvvəli 1-ci səh.*

Hətta regionda "sülhyaratma missiyasını" öz üzərinə götürən, hər gün fasiləsiz olaraq onlarla maşını aşağı-yuxarı hərəkət edən Rusiya da yeri gələndə erməniləri müdafiə edir. Vaxtaşırı qondarma rejimin lideri Araik Arutyunyanı və Qarabağ ermənilərinin yeni "xilaskarı" Ruben Vardanyanı Moskvaya "dərsə" çağırıb təlimatlandırırlar. Bu iki cinayətkar Qarabağda zühür edən kimi himayədarlarından aldıqları tapşırıqları kimin daha yaxşı yerinə yetirməsi uğrunda yarışa girirlər. Heç kimə sirr deyil ki, illərdir Ermənistanda hakimiyyət Qarabağ siyasəti üzərində qurulub. Qarabağ problemi Ermənistanda hakimiyyət dəyişikliyi üçün bir vasitə olub. Moskvadan geri dönən Araik Arutyunyan hərbi vəziyyət dövründə "prezident" postunun boş qalması halında qondarma rejimin qondarma "parlamenti" tərəfindən "prezident"in seçilməsi və bu seçkilərin xüsusiyyətləri ilə bağlı konstitusiyaya dəyişiklik edilməsi haqqında "fərman" imzalayıb. Artıq dəyişikliklər haqqında yeni layihə müzakirəyə də verilib. Görünən budur ki, tezliklə qondarma rejimin "parlamenti" yuxarıdan gələn direktivi canla-başla yerinə yetirərək Ruben Vardanyanı "prezident" də seçəcək. İndiyə kimi ikili oyun oynayan, həm Qərblə dostluğa can atıb Rusiyaya qarşı yeni cəbhə açan Nikol Paşinyanla balansı qoruyub saxlayan Araik Arutyunyana "getməlisən" əmri verildiyi artıq mübahisə doğurmur. Bu fakt onu deməyə əsas verir ki, Ermənistanda da yaxın zamanlar küləklər o qədər də sakit əsməyəcək. Nikol Paşinyan hakimiyyətinə müxalif olan revanşistlər, "yeni müharibə platforması" ilə Qarabağa gələn Ruben Vardanyanın ətrafında cəmləşəcəklər.

Burada daha bir maraqlı məqam var. 44 günlük müharibədə Ermənistanın məğlubiyyətindən sonra Cənubi Qafqazda ofsayd vəziyyətinə düşən Fransanın sonrakı mövqeyi necə olacaq? Ekofəallaların keçirdikləri dinc aksiyadan istifadə edib Azərbaycana qarşı iyrənc təbliğat aparanlar, yenidən müharibə alovu yandırmaq həvəsində olan, Azərbaycanla birgə yaşayışın mümkün olmadığını dəfələrlə bəyan edən, sülh danışıqlarına əngəl törədən Ruben Vardanyanın hakimiyyətə "gətirilməsinə" seyrçi qalacaqlar?

Laçın yolu ermənilərə humanitar dəhliz kimi verilib. Bu yoldan yalnız humanitar məqsədlər üçün istifadə edilə bilər. Əks tədqirdə, bu günə kimi üçtərəfli Bəyanatın şərtlərini müxtəlif bəhanələrlə yerinə yetirməkdən yayınan Ermənistan da, revanşistlər də, onlara kirvəlik edənlər də anlamalıdırlar ki, Azərbaycanın da səbri sərhədsiz deyil. Azərbaycan torpaqlarımızda qanunsuzluqlar edən, müharibə, düşmənçilik toxumu səpən ünsürləri cəzalandırmağa, layiq olduqları yerdə oturtmağa tam qadirdir. Dövlətimiz həmişə beynəlxalq hüququn normalarına uyğun hərəkət edib. Məlum məsələdir ki, 30 ilə yaxın bir müddətdə Azərbaycan torpaqlarını hərbi poliqona çevirən Ermənistan təbiətin flora və faunasına da ciddi ziyan vuraraq ekoloji terror törədib. Erməni vandalları 44 günlük müharibədə məğlubiyyətlərindən sonra da bu vərdişlərindən əl çəkmirlər. Azərbaycan tərəfi Ermənistanı torpaqlarımızda törətdikləri ekoloji terrora görə Beynəlxalq Məhkəməyə verib. Ermənistan törətdiyi ekoloji cinayətlərin cavabını verməlidir.

Azərbaycanlı ekofəallar etiraz aksiyalarını qanuni tələbləri yerinə yetirilməyənədək davam etdirməkdə israrlıdırlar. Xatırladaq ki, gənclərin keçirdiyi dinc aksiyada heç kim zərər çəkməyib, yol bağlanmayıb. Bunu bizim humanistliyimiz kimi anlasalar, daha düzgün olar. Yolun yox, sərhədlərin bağlanması ermənilərin imza atıb üzərlərinə götürdükləri şərtlərə necə əməl etmələrinə bağlı olan məsələdir. Humanitar məqsəd üçün verilmiş yoldan ermənilər hərbi məqsədlər üçün istifadəyə cəhd edəcəkləri halda, qarşılarında ekofəalları yox, qəhrəman Azərbaycan əsgərlərini görəcəklərini anlasalar, daha yaxşı olar.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "AzerGold" QSC "Tülallar" qızıl yatağında hasilat işlərinə başlayıb

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) Göygöl rayonunun inzibati ərazisində yerləşən "Tülallar" qızıl yatağında hasilat işlərinə başlayıb.



Qızıl yatağında suxurların ilk dəfə partladılması prosesi səhmdar cəmiyyət üçün ən əlamətdar təqvimlərdən birində, 11 fevral 2023-cü il tarixində - Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə səhmdar cəmiyyətin təsis olunmasının 8-ci ildönümündə baş tutub.

Qeyd edək ki, "Tülallar" qızıl yatağı SSRİ dövründə kəşf olunmuş, lakin geniş tədqiq edilməmişdir. Yalnız 2017-ci ildən QSC-nin geoloqları tərəfindən geniş tədqiq edilərək 2022-ci ildə beynəlxalq nüfuzlu məsləhətçi "Micon International Co Limited" şirkəti tərəfindən ilkin mərhələdə yerin təkində 298 min unsiya qızıl, çıxarıla bilən həcm olaraq isə 85 min unsiya qızıl ehtiyatı hesablanıb təsdiqlənərək dövlət balansına alınmışdır.

Hazırda istismar müddəti 3 il nəzərdə tutulan qızıl yatağında hasilat işləri ilə paralel ehtiyatların artırılaraq istismar müddətinin uzadılması üçün mədənin yaxın və uzaq cinahlarında, Göygöl-Daşkəsən inzibati rayonlarının ərazisinə təsadüf edən sahələrdə intensiv geoloji axtarış-qiymətləndirmə, ilkin geoloji-kəşfiyyat işləri davam etdirilir və artıq bir sıra minerallaşma zonaları aşkar edilib. Perspektivli minerallaşma sahələrinin 2023-cü il ərzində maqnit və elektrik geofiziki tədqiqat üsulları ilə öyrənilməsi həyata keçiriləcəkdir. "Tülallar" yatağının çıxarıla bilən ehtiyatlarının və istismar müddətinin ən azı 3 ildən 4 il 2 aya qədər artırılması əsas gözləntilərdir. Ümumilikdə mədənin istismara verilməsi bölgədə yeni iş yerlərinin açılması ilə məşğulluğun artırılması və beləliklə, ölkəmizin qeyri-neft sektorunun inkişafına, Daşkəsən və Göygöl rayonlarının əhalisinin rifah halının daha da yaxşılaşdırılmasına müsbət təsirini göstərəcəkdir.

Xatırladaq ki, "Tülallar" hasilat sahələrinin genişləndirilməsini, respublikanın malik olduğu zəngin mineral-xammal potensialının dayanıqlı inkişafa çevrilməsini, ölkənin sosial-iqtisadi inkişafına töhfələrin verilməsini qarşıya məqsəd qoyan "AzerGold" QSC-nin istismara verdiyi sayca dördüncü qızıl yatağıdır. Səhmdar cəmiyyətin Daşkəsən rayonunda mövcud olan maddi-texniki bazasından mərkəzləşdirilmiş qaydada istifadə edilməsi, yataqların iqtisadi səmərəliliyinin təmin edilməsi üçün daha öncə istismara verilən "Çovdar", "Ağyoxuş-1" və "Mərəh" qızıl yataqları ilə yanaşı, "Tülallar" qızıl yatağının resurslarının istehsalı prosesi də Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES), inşası cari il ərzində yekunlaşdırılacaq CIL (Carbon in Leach) zavodunda çən aşındırma metodu ilə həyata keçiriləcəkdir. Sözügedən yatağın ÇİRES-in əsas komponenti olduğunu nəzərə alaraq, görülən işlər ümumilikdə regional emal sahəsinin istismar dövrünün də artırılması ilə Gəncə-Daşkəsən iqtisadi rayonunun sosial-iqtisadi tərəqqisinin davamlılığının təmin olunmasına əlavə töhfə verəcək.

***"Azərbaycan"***

# Laçın-Xankəndi yolunda hərəkətin sərbəstliyi mütəmadi surətdə təmin olunur





Laçın-Xankəndi yolunda təşkil olunan dinc aksiyanın iştirakçıları ərazidən humanitar məqsədlər üçün istifadəyə növbəti dəfə şərait yaradıblar.

Xankəndidən Laçın istiqamətinə hərəkət edən Beynəlxalq Qırmızı Xaç Komitəsinə (BQXK) məxsus altı avtomobil ərazidən maneəsiz keçib.

* * *

Laçın-Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir.

Sülhməramlılara məxsus bir yük avtomobilinin Laçından Xankəndi istiqamətinə, iki minik avtomobilinin isə Xankəndidən Laçın istiqamətinə sərbəst hərəkəti təmin edilib.

Bu, bir daha göstərir ki, Ermənistanın blokada ilə bağlı səsləndirdiyi iddialar saxtadır. Laçın-Xankəndi yolu bütün humanitar məqsədli maşınlar və mülki şəxslər üçün açıqdır.

***AZƏRTAC***

# Özbəkistan Nəqliyyat Nazirliyinin nümayəndə heyəti "Azərbaycan Dəmir Yolları" QSC-də olub

Özbəkistan nəqliyyat nazirinin müavini Abdulsamat Muminovun rəhbərlik etdiyi nümayəndə heyəti "Azərbaycan Dəmir Yolları" QSC-də olub.



"Azərbaycan Dəmir Yolları" QSC-nin Mətbuat xidmətindən verilən məlumata görə, görüşdə iki ölkənin dəmir yolları sahəsində əməkdaşlıq imkanları, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi, o cümlədən CASCA + multimodal nəqliyyat marşrutu çərçivəsində yeni əməkdaşlıq təklifləri nəzərdən keçirilib.

# İranın bitməyən mənəvi terroru

*Əvvəli 1-ci səh.*

Beləliklə, inqilabi hərəkat 1979-cu ilin 11 fevral tarixində istədiyinə nail oldu. Məhəmməd Rza şah Pəhləvi hakimiyyəti devrildi və şah rejiminə son qoyuldu. Sürgündən geri dönən Ruhullah Musəvi Xomeyni hakimiyyətə gəldi. İran İslam Respublikası quruldu.

Tarixdə baş verən bütün inqilablarda xalqın məqsədi daha mütərəqqi, müasir, bir sözlə, insanları ağ günə çıxaran hakimiyyətin qurulmasıdır. İran İslam İnqilabından sonrakı hadisələr, İranın bu gün düşdüyü ağır böhranlı vəziyyət bunun əksini göstərdi. İranda yaşayanlar, necə deyərlər, yağışdan çıxıb yağmura düşdülər. Ölkənin adına islam sözü əlavə olunsa da, dinsizlik, Alahsızlıq hökm sürməyə başladı. Tehranın molla rejimi sadə insanlara qarşı dinə yaraşmayan, insanlığa uyğun olmayan əməllər törətdi, qərarlar verdi, qaydalar qoydu.

İran İslam Respublikası ölkənin daxili siyasəti kimi, xarici siyasətində də "yanlışlıqlara", "səhvlərə" yol verdi. İslam dinini bayraq edən İran xüsusilə din qardaşlarının yaşadığı ölkələrə qarşı münasibətdə riyakarlıq, fitnəkarlıq etdi. Ərazisinin çox hissəsinin Azərbaycan torpaqları, vətəndaşlarının çoxunun azərbaycanlılar olduğunu belə nəzərə almadı. İran İslam Respublikası SSRİ dağılıb, tərkibindəki respublikalar, eləcə də Azərbaycan müstəqil dövlət olduqdan sonra düşdüyü təlaşı gizlədə bilmədi. Bunu ən çox da Azərbaycanın düşmənləri ilə müttəfiqlik edərək göstərdi. 1980-ci illərin sonları, 1990-cı illərin əvvəllərində təcavüzkar ermənilər Qərbi Azərbaycanda, Qarabağda, Şərqi Zəngəzurda azərbaycanlılara divan tutanda, soyqırımı törədəndə, günahsız insanları, qoca, uşaq, qadın demədən işgəncələrlə qətlə yetirəndə İranın nə görən gözləri oldu, nə də eşidən qulaqları. Amma işğalçı Ermənistana yardım etməyi yaddan çıxarmadı. 1990-cı illərdə Azərbaycan ərazilərinin iyirmi faizi Ermənistan tərəfindən işğal edildi. Otuz ilə yaxın həmin yerlərin ah-naləsi göylərə bülənd oldu. Erməni vandalları Qarabağda, Şərqi Zəngəzurda tarixiliyinə, müasirliyinə fərq qoymadan bütün tikililəri uçurub dağıtdılar. Adına islam ölkəsi deyən İran ermənilərin məscidlərdə donuz saxlamalarına, bununla əslində yalnız azərbaycanlıları deyil, bütün müsəlmanları təhqir etdiklərinə belə etiraz etmədi. Həmin ermənilərdən öz kömək əlini, yardımlarını bir gün də əsirgəmədi.

İran İslam Respublikasının diplomatik münasibətlərdə uğursuzluqları, yol verdiyi cinayətlər də hər kəsə məlumdur. Bu rejimin dövründə ayrı-ayrı illərdə ölkədəki diplomatik korpuslara - ABŞ, Böyük Britaniya və Səudiyyə Ərəbistanı səfirliklərinə terror hücumları edildi. Bu il yanvarın 27-də isə Azərbaycanın Tehrandakı səfirliyinə terror hücumları baş verdi, səfirliyin mühafizə xidmətinin rəisi, baş leytenant Orxan Əsgərov şəhid oldu, səfirliyin əməkdaşları Mahir İmanov və Vasif Tağıyev isə yaralandı.

Hiddət doğuran faktlardan biri odur ki, Azərbaycan səfirliyinə terror hücumu gözlənilməz olmayıb. Terror hadisəsindən sonra Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) bəyanatında İrandakı diplomatik missiyamıza qarşı əvvəllər də təhdid cəhdləri olduğu, bu kimi halların qarşısının alınması, diplomatik missiyalarımızın təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi İran qarşısında dəfələrlə qaldırıldığı vurğulanıb: "Təəssüf ki, son qanlı terror hücumu bu istiqamətdə təkidli müraciətlərimizə lazımi həssaslıq göstərilməməsinin ağır fəsadlarını nümayiş etdirir".

Yanvarın 27-də Tehranda törədilən qanlı terror məhz İranın Azərbaycan tərəfinin diplomatik missiyasına qarşı təhdid cəhdlərinin qarşısının alınması, təhlükəsizliyinin təmin edilməsi üçün tədbirlər görülməsi barədə davamlı qaldırdığı məsələlərə, təkidli müraciətlərə əhəmiyyət verməməsi, eləcə də beynəlxalq hüquq və normaları heçə sayması nəticəsində baş verdi. Terrorun icraçısı Yasin Hüseynzadənin hadisəni törətməzdən qabaq ciddi müşahidə apardığı, yanvarın 27-si iki dəfə - saat 08:05 və 08:24-də idarə etdiyi avtomobillə səfirliyin qarşısından keçdiyi səfirliyin müşahidə kameralarına da düşüb. Sonra saat 08:32-də terrorçu əlində "Kalaşnikov" avtomatı nümayişkaranə şəkildə Azərbaycan səfirliyinin yerləşdiyi binaya daxil olub. Həmin ərazidə olan polis əməkdaşı isə bütün bunları çox sakit və arxayın şəkildə izləməklə kifayətlənib. Terror hadisəsinin qarşısını almaq üçün sonradan da hər hansı operativ addımların atılması müşahidə edilməyib. Faktlar söyləməyə əsas verir ki, Azərbaycan səfirliyinə hücum planlı şəkildə idi və mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyev baş verə biləcək təhlükəli hadisənin qarşısını qəhrəmanlıqla alıb, canini zərərsizləşdirməsəydi, terrorçunun hədəfində bütün səfirlik əməkdaşlarının qətlə yetirilməsi vardı.

İran rəsmilərinin bunu "məişət" zəminində baş verən hadisə kimi qələmə vermək cəhdləri, əslində qanlı terrorun mahiyyətini ortaya çıxardı. Bununla bir daha təsdiq etdilər ki, yanvarın 27-də Azərbaycanın Tehrandakı səfirliyində olanlar, beynəlxalq hüquqla qorunan ərazilərimizə silahlı basqın İranın xüsusi xidmət orqanları tərəfindən hazırlanaraq dövlətimizə qarşı həyata keçirilmiş terror aktıdır.

Görünən odur ki, bir neçə gün öncə - fevralın 11-də hakimiyyətə gəlməsinin qırx dördüncü ili tamam olan molla rejimi bir-birinin ardınca yol verdiyi cinayət əməlləri ilə sarsılmaqdadır. Bu rejimin yersiz qadağalarından, zülmlərindən, əsarətindən, işgəncələrindən qırx dörd ildir ki, canı boğazına yığılmış xalq artıq azadlıq arzusunu, rahat nəfəs almaq istəyini uca səslə hayqırır.

Hakimiyyətə islahat, demokratiya, azadlıq, bütün millətlərin hüquqlarının qorunacağı vədləri ilə gəlmiş İran hökuməti öz vətəndaşlarının düşməninə çevrilib. Asıb-kəsməklə, işgəncələrlə, edam etməklə ölkə əhalisini gözünün odunu almaq cəhdi isə artıq molla rejiminin gözlədiyi nəticəni vermir. Ötən ilin sentyabrından bəri ölkəni bürüyən etirazların qarşısını almaqda rejim aciz qalıb.

Ölkə vətəndaşları ədalət istəyirlər, öz hüquqlarını, haqlarını tələb edirlər. Konstitusiyasında qeyd olunsa da, İran hökuməti hər zaman Güney azərbaycanlıları başda olmaqla, digər bütün millətlərin problemlərinə laqeyd yanaşıb, hüquqlarını pozub. Dilini, mədəniyyətini, bir sözlə, milli kimliklərini yox etməyə cəhd göstərib. Ancaq İran rəsmiləri tarixi unutmamalıdırlar. Yaddan çıxarmamalıdırlar ki, milli kimliyi heç bir vasitə ilə unutdurmaq, məhv etmək mümkün deyil.

Öz dillərində təhsil almaq və digər hüquqlarından məhrum edilən Güney azərbaycanlıları İranda rejim əleyhinə beş aydan çoxdur davam edən etirazların önündə gedirlər. Mübarizələrini "Azadlıq, ədalət, milli hökumət" şüarı ilə davam etdirirlər.

İran rejimi tərəfindən illərdir ki, azərbaycanlılara öz torpaqlarında, öz yurdlarında rahat yaşaya bilməmələri üçün məqsədli şəkildə iş aparılır, ekoloji problemlər yaradılır. Sonuncu Xoy zəlzələsi zamanı rejimin insanlara heç bir kömək göstərməməsi, azərbaycanlıların qışın qarlı-şaxtalı günlərində evlərinin dağılması, küçələrdə qalmaları ürək ağrıdır.

Hakimiyyətə inqilabla gələn rejim aradan qırx dörd il ötsə də dönüb keçmişinə baxmalı, nəticə çıxarmalıdır. Xalqın etirazı getdikcə daha da artmaqdadır. Görünən odur ki, yalnız soydaşlarımız deyil, İranda yaşayan digər xalqlar da artıq molla rejiminin zülmü altında əzilmək niyyətində deyillər. Bu isə ondan xəbər verir ki, inqilab yenidən baş verə bilər.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Qaz kəmərlərində partlayışları kim törədir

**NATO Baltik dənizinin dibi ilə gedən Rusiyaya məxsus "Şimal axını" və "Şimal axını-2" qaz boru kəmərlərində partlayışlarla bağlı iddia edilən təxribat hücumlarından sonra kritik infrastrukturun mühafizəsini yaxşılaşdırmaq üçün koordinasiya bürosu yaradır.**



Bu barədə Şimali Atlantika Alyansının baş katibi Yens Stoltenberq Belçikanın paytaxtı Brüsseldə bildirib. Stoltenberq vurğulayıb ki, koordinasiya bürosunun məqsədi mümkün zəifliklərin xəritəsini tərtib etmək və sənaye nümayəndələri ilə əməkdaşlığı gücləndirməkdir. Bu, boru kəmərləri və sualtı kabellər kimi kritik infrastruktura qarşı təhlükələrin qarşısını almağa kömək edəcək.

Qeyd edək ki, son zamanlar NATO müttəfiqləri kritik qurğuların təhlükəsizliyini və kəşfiyyat məlumatlarının mübadiləsini gücləndiriblər.

## Qərbdə sabotaj versiyasını dəstəkləyirlər

Ötən il sentyabrın 26-da "Şimal axını"nın iki xəttində, daha sonra isə "Şimal axını-2"də ümumilikdə dörd sızma aşkar edilib. Bundan əvvəl İsveç və Danimarkadakı seysmoloji stansiyalar həmin ərazidə güclü sualtı partlayışlar qeydə alıblar.

Almaniya, Danimarka və İsveçdə partlayışların səbəbi və dəyən ziyanla bağlı araşdırmalar aparılır. İsveçin xarici işlər naziri vəzifəsində çalışmış Ann Linde "Danimarka və İsveçə aid iqtisadi zonalarda "Şimal axını" və "Şimal axını-2"də qaz sızmasının, ehtimal ki, təxribat nəticəsində baş vermiş partlayışların nəticəsi olduğunu" vurğulayıb. NATO və Avropa İttifaqında da sabotaj versiyalarını dəstəkləyirlər.

Ərazi sularında partlayışlar baş verən İsveç və Danimarka boru kəmərlərinin qəsdən partladıldığı qənaətinə gəliblər, lakin hadisəyə görə kimin məsuliyyət daşıya biləcəyini açıqlamayıblar. Moskva isə partlayışlarla bağlı Qərbi günahlandırıb.

Bu günlərdə Almaniya bildirib ki, Baltik dənizində "Şimal axını" və "Şimal axını-2" qaz kəmərlərində baş vermiş partlayışların təhqiqatı zamanı onların Rusiya tərəfindən törədildiyinə dair hələlik heç bir sübut əldə olunmayıb. Ölkənin baş prokuroru Peter Frank "Welt am Sonntag" qəzetinə müsahibəsində deyib ki, hazırda bunu sübut etmək mümkün deyil. Onun sözlərinə görə, istintaq davam edir.

## Ağ Evin araşdırmaçı jurnalist Herşin ittihamlarına reaksiyası

Tanınmış amerikalı araşdırmaçı jurnalist Seymur Herş öz bloqunda Baltik dənizində "Şimal axını-2" və "Şimal axını" qaz kəmərlərinin partladılmasının ABŞ Prezidenti Co Baydenin göstərişi ilə həyata keçirildiyini yazıb. Lakin Ağ Ev bu iddiaları rədd edib. Müvafiq bəyanatla Ağ Evdə Milli Təhlükəsizlik Şurasının Mətbuat xidmətinin rəhbəri Aydriann Uotson çıxış edib. O bildirib ki, jurnalistin irəli sürdüyü ittihamlar "tamamilə yalan və tam uydurmadır".

Oxşar fikri ABŞ Dövlət Departamentinin nümayəndəsi də səsləndirib.

"Əməliyyat planlaması haqqında bilavasitə məlumatı olan mənbəyə" istinad edən S.Herşin dediyinə görə, 2022-ci ilin iyununda NATO-nun "Baltops 22" adlı təlimləri pərdəsi altında fəaliyyət göstərən ABŞ Hərbi Dəniz Qüvvələrinin dalğıcları dənizin dibində uzaqdan idarə olunan partlayıcı mexanizm yerləşdiriblər. Üç ay sonra isə qurğu işə salınıb və boru kəmərlərinin dörd qolundan üçü dağıdılıb. Əməliyyatda Norveçin də iştirak etdiyi iddia olunur.

Norveçin Xarici İşlər Nazirliyi isə Herşin irəli sürdüyü ittihamları "cəfəngiyyat" adlandırıb.

***Rizvan HİLALOĞLU,***
***"Azərbaycan"***

# REGİONLAR

## Azərbaycan və Pakistan çəltikçilik sahəsində əməkdaşlığı genişləndirir

**Çəltikçiliyin elmi əsaslarla inkişaf etdirilməsi məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən Dövlət Toxum Fondu və Əkinçilik Elmi-Tədqiqat İnstitutunun nümayəndə heyəti Pakistan İslam Respublikasında səfərdədir.**



Səfərin ilk günündə Dövlət Toxum Fondunun sədri Sərxan Sərxanov və Əkinçilik Elmi-Tədqiqat İnstitutunun direktoru Faiq Xudayev Pakistan Kənd Təsərrüfatı Tədqiqatları Şurasının sədri, professor Qulam Məhəmməd Əli ilə görüşüb. Görüşdə çəltik bitkisinin təsərrüfat əhəmiyyəti, ərzaq təhlükəsizliyində rolu, çəltikçilik sahəsində görülən işlər, Azərbaycanda çəltikçiliyə göstərilən dövlət dəstəyi müzakirə olunub. Respublikamızda çəltik istehsalı kənd təsərrüfatında vacib sahələrdən biri olduğundan bu sahədə məhsuldarlığın daha da artırılmasının vacibliyi vurğulanıb.

Qeyd olunub ki, 2022-ci ildə ilk dəfə olaraq Kənd Təsərrüfatı Nazirliyinin Əkinçilik Elmi-Tədqiqat İnstitutu tərəfindən çəltiyin yüksək məhsuldar, xəstəlik və zərərvericilərə davamlı sortlarının yaradılması, introduksiyası, yerli şəraitə adaptasiyası və toxumçuluğunun təşkili istiqamətində tədqiqat işlərinə başlanılıb və institutda "Çəltik bitkisinin seleksiyası və becərmə texnologiyası" şöbəsi yaradılıb.

Görüşdə çəltikçiliyin inkişafı ilə bağlı cari ildə görüləcək işlər, yerli toxum sortlarının Azərbaycana inteqrasiya olunması, Pakistan təcrübəsindən istifadə edərək kadr hazırlığı, ölkəmizin torpaq-iqlim şəraitinə uyğun olan yerli sortların yaradılması üçün genetik materialların Azərbaycana gətirilməsi barədə razılıq əldə edilib.

Pakistan Kənd Təsərrüfatı Tədqiqatları Şurasının sədri Qulam Məhəmməd Əli Azərbaycanla çəltikçilik sahəsində əməkdaşlığa hazır olduqlarını, iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsinin vacibliyini diqqətə çatdırıb.

## ADAU-dakı "dəyirmi masa"da mühüm məsələlər müzakirə olunub



**Azərbaycan Dövlət Aqrar Universitetində (ADAU) "Taxıl bitkilərində sort və hibridalma, onların toxumçuluğu, nailiyyətlər və perspektivlər" mövzusunda "dəyirmi masa" keçirilmişdir.**

Tədbirdə əvvəl Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirələri birdəqiqəlik sükutla yad edilmişdir. Sonra rektor vəzifəsini icra edən Zəfər Qurbanov çıxış edərək Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar universitetdə təsdiq edilmiş tədbirlər planına əsasən, qarşıda duran vəzifələrdən, universitet-sənaye əməkdaşlığının əhəmiyyətindən, həmçinin kadr hazırlığı prosesində fermer və müəssisələrlə birgə həyata keçirilən layihələrin əhəmiyyətindən danışmışdır.

Taxıl və paxlalı bitkilər laboratoriyasının müdiri Firuddin Qurbanov "Taxıl bitkilərində sort və hibridalma, onların toxumçuluğu, nailiyyətlər və perspektivlər" mövzusunda çıxış etmişdir. Ardınca tədbirdə iştirak edən fermer və müəssisə rəhbərlərinin mövzu ətrafında fikirləri dinlənilmişdir.

ADAU ilə "AGROVİT" MMC arasında birgə əməkdaşlıq haqqında memorandum imzalandıqdan sonra tədbir iştirakçıları universitetin toxumçuluq sahəsinə baxış keçirmişlər.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***



## Mingəçevir regionun enerji mərkəzi kimi mövqeyini möhkəmləndirir

**Mingəçeviri həmişə nur şəhəri adlandırmışıq. Burada fəaliyyət göstərən elektrik stansiyası hazırda ölkəmizin elektrik enerjisinə ehtiyacının böyük hissəsini ödəyir. Bir neçə gün əvvəl təməli qoyulan yeni, 1280 meqavat gücündə elektrik stansiyası isə Azərbaycanın elektroenergetika mərkəzi kimi Mingəçevirin önəmini daha da artıracaq.**

1976-cı ildə Mingəçevirdə Heydər Əliyevin təşəbbüsü ilə tikilməyə başlayan və 1981-ci ildə Ulu Öndərin özünün iştirakı ilə birinci blokunun açılışı olan stansiya Azərbaycanın bu gözəl şəhərini bütün Qafqazın enerji mərkəzinə çevirmişdir. Ümumi generasiya gücü 2400 meqavat olan stansiya ölkənin enerjiyə ehtiyacının qarşılanmasında böyük xidmət göstərmişdir. Xüsusilə müstəqilliyimizin ilk çətin illərində, əhali işıq qıtlığı yaşayanda Mingəçevir Elektrik Stansiyası öz üzərinə böyük yük götürmüş, xeyirxah bir missiya yerinə yetirmişdir. Son illər isə bu enerji obyektinin salnaməsi yeni səhifələrlə zənginləşmişdir. Prezident İlham Əliyevin göstərişinə əsasən, 2018-ci ildə stansiyanın tamamilə yenidən qurulması prosesi başlanmışdır. Cəmi iki ildə 8 blok tamamilə yenidən qurulmuş və 2020-ci ildə əvvəlki gücü ilə yenidən istifadəyə verilmişdir.

İşığımızı, nur mənbəyimizi gözü götürməyən düşmən Vətən müharibəsinin getdiyi vaxt döyüş meydanından uzaq məsafədə olan stansiyaya qadağan olunmuş silah tuşlamış, lakin mənfur niyyəti elə gözündə qalmışdır.

Azərbaycan isə yeni-yeni enerji qurğularını işə salır. Bütövlükdə ölkəmizin elektroenergetika sahəsi sürətlə inkişaf edir. Son 20 il ərzində 34 elektrik stansiyası inşa edilmiş və onların generasiya gücü təqribən 3400 meqavata çatdırılmışdır. Qeyd edək ki, hazırda mövcud olan ümumi 7200 meqavat generasiya gücünün 3400 meqavatı son 20 ildə yaradılmışdır.

Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlarımızda bərpa-yenidənqurma işlərinə də məhz elektroenergetika sahəsindən başlanmışdır. Burada artıq 10-dan çox yarımstansiya inşa edilmiş, 10-dan çox su-elektrik stansiyası istifadəyə verilmişdir. Cəmi iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaradılmışdır və bu rəqəm cari ilin sonuna qədər 200 meqavata çatdırılacaq. Yəni təkcə azad edilmiş torpaqlarda 3 il ərzində 200 meqavatlıq enerji gücü yaratmış olacağıq. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı bu bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaratmağa imkan verəcək. Üstəgəl, Azərbaycanda bərpaolunan enerji növlərinin inkişafı üçün çox böyük potensial var.

Mingəçevirdə təməli qoyulan yeni istilik-elektrik stansiyası isə 2025-ci ildə fəaliyyətə başlayacaq və enerji potensialımızı daha da gücləndirəcək. Prezident İlham Əliyev onun əhəmiyyətini belə dəyərləndirmişdir: "İndi isə Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır".

Qeyd edək ki, stansiya ölkəmizin daxili resursları çərçivəsində inşa ediləcək. Layihənin ümumi dəyəri təqribən 400 milyon dollara qədər olacaq. Ödəniləcək vəsaitin 60 faizi "Azərenerji"nin öz vəsaiti hesabına, qalan 40 faizi kreditlər vasitəsilə təmin ediləcək. Tikintiyə yönəldilən maliyyə eyni həcmdə olan stansiyaların tikintisinə sərf edilən vəsaitdən bir neçə dəfə aşağıdır. Səbəb isə səmərəlilikdir. Bir vacib səbəb də odur ki, Mingəçevirdə güclü elektroenergetika infrastrukturu mövcuddur və sözügedən stansiyanın məhz burada inşa edilməsi məqsədəuyğundur. Stansiya xarici tərəfdaşlarla birlikdə inşa ediləcək.

Prezident İlham Əliyev tikiləcək stansiyanın əhəmiyyətini bir daha vurğulayaraq demişdir: "Bu, hərtərəfli uğurlu bir layihədir. Baxmayaraq ki hazırda dünyada, Avropada, o cümlədən Azərbaycanda bərpaolunan enerjiyə daha böyük üstünlük verilir, biz də bu sahədə böyük uğurlara artıq imza atmışıq. Buna baxmayaraq ənənəvi resursların, ənənəvi stansiyaların da faydası göz önündədir".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Azərbaycanda məşğulluğa dəstək" layihəsi çərçivəsində 5366 şəxsə aktivlər verilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dünya Bankının birgə icra etdiyi "Azərbaycanda məşğulluğa dəstək" layihəsi çərçivəsində bu günədək 5366 işsiz şəxsə aktivlər verilərək istehsal və xidmət sahələri üzrə kiçik bizneslər yaradılıb.**



Layihənin məqsədi işsiz kimi qeydiyyata alınmış əlilliyi olan şəxslər, şəhid ailəsi üzvləri, ünvanlı dövlət sosial yardımı alanlar və digər həssas qruplara aid şəxslərin özünüməşğulluq üzrə kiçik biznesə çıxışına şərait yaradılmasıdır.

Bu ilin ötən dövründə də proqrama daha 318 şəxs cəlb olunub. Layihəyə cəlb olunan şəxslər əvvəlcə təlimlərdə iştirak edir və təlimlərin sonunda keçirilən qiymətləndirmə prosesində biznes planlarını müdafiə edən şəxslər avadanlıqlarla təmin olunurlar.

Layihə üzrə 22 min işsiz şəxsin kiçik biznesə çıxışına imkan yaradılması nəzərdə tutulub.

## Tovuz taxılçıları nümunə göstərirlər

### Rayon əkinçiləri üçün hektardan 42,8 sentner məhsul son hədd deyil

**Ərzaq təhlükəsizliyinin təmin edilməsində strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahəsidir. Bu sahə əhalinin çörək və çörək məmulatlarına olan ehtiyacını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır. Odur ki, son illər ölkəmizdə taxılçılığın inkişafını təmin etmək üçün əməli tədbirlər həyata keçirilir.**



Taxılçılıqda müəyyən uğur qazanan rayonlardan biri də Tovuzdur. Rayonda fəaliyyət göstərən fermerlər dövlətin göstərdiyi güzəştlərdən yararlanaraq taxıl istehsalını ildən-ilə artırırlar. Son təsərrüfat ilinin göstəricilərinə nəzər salaq: ötən il əkilmiş 16776 hektar sahədən 58416,6 ton taxıl (1522 hektardan 50381 ton buğda, 2113 hektardan 8030 ton arpa) biçilmişdir ki, bu da hər hektardan 42,8 sentner məhsul deməkdir. Bu ilin məhsulu üçünsə rayon fermerləri əkin sahələrini bir qədər də artıraraq 18454 hektara çatdırmışlar. Taxılçılar 15644 hektara payızlıq buğda, 2810 hektara payızlıq arpa toxumları səpmişlər. Bu sahələrin 12899 hektarı suvarılan, 5555 hektarı dəmyədir. Hazırda suvarılan sahələrə su verilməsi yekunlaşır. Bundan başqa, əkilən taxılı ziyanvericilərdən qorumaq üçün tədbirlər də görülür.

Tovuzda taxılçılıq sahəsində zəngin təcrübə toplayan onlarca təsərrüfat var. Onlardan "Tovuz AGRO DAİM" MMC-ni, "Tovuz Aqro Suple" MMC-ni, "Tovuz Aqro Kompleks"i, "Azər Aqrar" və s.-ni göstərmək olar. Bu təsərrüfatlarda hər il yüksək göstəricilərə nail olunur.

Rayonda qabaqcıl fərdi təsərrüfat sahibləri də az deyil. Ədalət Məhərrəmov, Mətanət Məmmədova, Kamal Əsgərov və Kamal Ələsgərov hər ili uğurlu göstəricilərlə başa vururlar.

Hazırda taxıl sahələri yaşıl örpəyə bürünüb. Fermerlər cari ildə də bol məhsul əldə etmək üçün aqrotexniki tədbirləri vaxtında görməyə çalışırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəki-Zaqatala bölgəsinin məktəbliləri respublika müsabiqəsində uğur qazanıblar

**Şəki-Zaqatala bölgəsinin şagirdləri Ekologiya və Təbii Sərvətlər, Kənd Təsərrüfatı nazirliklərinin birgə əməkdaşlığı çərçivəsində Elm və Təhsil Nazirliyinin dəstəyi, "Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi"nin təşəbbüsü və təşkilatçılığı ilə keçirilən "Ekoloji təmiz məhsul və aqrobiomüxtəliflik" IV Respublika müsabiqəsində müxtəlif nominasiyalar üzrə uğur qazanıblar.**

Müsabiqədə ümumtəhsil və internat məktəblərinin V-XI sinif şagirdləri, məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvləri fərdi, kollektiv, sinif, ailə və ya məktəb şəklində iştirak ediblər. Meyvəçilik, subtropik bitkilər, arıçılıq, heyvandarlıq, meşə məhsulları, tərəvəzçilik, gülçülük, dənli bitkilər, texniki bitkilər, "balaca fermer" (I-IV siniflər), Qarabağın biomüxtəlifliyi nominasiyaları üzrə keçirilən müsabiqənin final mərhələsinə 100 nəfər vəsiqə qazanıb. AZƏRTAC xəbər verir ki, final mərhələsinin nəticələrinə əsasən, Şəki-Zaqatala Regional Təhsil İdarəsi üzrə arıçılıq nominasiyasında Qax məktəblisi Kənan Həmzəyev birinci yerə, Balakən məktəblisi Həcər Ceerçiyeva ikinci yerə, meşə məhsulları nominasiyası üzrə Oğuz məktəblisi Fidan Həbibullayeva ikinci yerə layiq görülüblər. Kənan Həmzəyev eyni zamanda müsabiqənin "Qran-pri"sini alıb.

Müsabiqənin qalibləri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

## Ağsuda sahibkarlarla görüş keçirilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı ilə Ağsu rayonunda sahibkarlarla görüş keçirilib.**

Görüşün məqsədi Ağsuda fəaliyyət göstərən sahibkarların biznesin qurulması və inkişaf etdirilməsi sahəsində ehtiyaclarını öyrənmək, qarşılaşdıqları çətinlikləri dinləmək, dövlət dəstəyi mexanizmləri, o cümlədən KOBİA-nın dəstək və xidmətləri barədə onları məlumatlandırmaq olub.

Ağsu rayonunda fəaliyyət göstərən sahibkarların və biznes subyektlərinə xidmət göstərən dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə keçirilmiş tədbir çərçivəsində sahibkarlara yerində dəstək göstərilməsi məqsədilə fəaliyyətə başlayan KOB dostu rayonun biznes ictimaiyyətinə təqdim edilib. Ağsu KOB dostu Dağlıq Şirvan iqtisadi rayonu üzrə fəaliyyət göstərən sayca 3-cü KOB dostudur. Ümumilikdə, KOBİA-nın regionlardakı nümayəndələri olan KOB dostları hazırda ölkənin 39 şəhər və rayonunu əhatə edir.

Sahibkarlarla görüşdə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov biznes subyektlərinə yerində dəstəyin təmin olunması baxımından KOB dostu şəbəkəsinin önəmini qeyd edib. Bildirilib ki, KOB dostları mikro, kiçik və orta sahibkarların biznes təşəbbüslərinin reallaşdırılması, sahibkar maraqlarının müdafiəsi, yeni KOB subyektlərinin yaradılması və inkişafı, sahibkarlara göstərilən dövlət dəstəyi mexanizmləri barədə məlumatlandırma, dövlət qurumları ilə əlaqələndirmə kimi istiqamətlərdə fəaliyyət göstərir. Ağsu rayonunun biznesin inkişafı üçün potensialını qeyd edən Orxan Məmmədov bu iqtisadi potensialın reallaşdırılması üçün KOB dostlarının dəstəyini vurğulayıb, sahibkarları KOB dostları ilə fəal əməkdaşlığa dəvət edib.

Ağsu Rayon İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində regionların inkişaf etdiyini və rayonda sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsi üçün əlverişli imkanların olduğunu bildirib. Qeyd olunub ki, Ağsuda fəaliyyətə başlayan KOB dostu sahibkarlar və sahibkarlıq fəaliyyətinə yeni başlayanlar üçün faydalı olacaq.

Tədbir çərçivəsində agentlik tərəfindən KOB-lara göstərilən dəstək mexanizmləri barədə filmlər nümayiş olunub, sahibkarları maraqlandıran suallar cavablandırılıb.

Sonra tədbir iştirakçıları Ağsu Gənc Sənətkarlar Mərkəzində yerləşən KOB dostu ofisi ilə tanış olublar. KOB dostu ofisində sahibkarlara xidmətlərin təqdim edilməsi üçün lazımi şərait yaradılıb. Burada "KOB könüllüləri" də fəaliyyət göstərir.

## Giləzi-Xızı avtomobil yolunun Giləzi qəsəbəsindən keçən hissəsinin əsaslı təmiri davam edir

**Uzunluğu 3,8 km olan avtomobil yolunun sözügedən hissəsinin eni müvafiq olaraq 8-16 metrdir.**

Uzun müddət əsaslı şəkildə təmir olunmadan istismar olunan yolun sözügedən hissəsində asfalt-beton örtüyündə deformasiyalar və qabarmalar əmələ gəlmişdi. Bu isə öz növbəsində vətəndaşların rahat gediş-gəlişini təmin etmirdi. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən hazırda qeyd edilən problem aradan qaldırılır.





# ŞUŞA Türk Dünyasının Mədəniyyət Paytaxtıdır



● Qarabağ Azərbaycandır!

**Bütün türk dünyası Qarabağın incisi Şuşanı özünün qürur, fəxarət ünvanı sayır. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi şanlı qələbəni öz zəfərləri kimi dəyərləndirən qardaş xalqların nümayəndələrinin də xalqımızla bərabər milli qürur və birlik coşqusu yaşamaları hamımızın xatirindədir.**
**Prezident İlham Əliyevin siyasi iradəsi və əzmi sayəsində ölkəmizin qazandığı bu parlaq qələbə türk xalqlarının da taleyində bilavasitə mühüm rol oynayıb, türk birliyinin, həmrəyliyinin daha da güclənməsinə mühüm töhfə verib.**



# Türk mədəniyyətinin Şuşa zirvəsi

Azərbaycan Prezidentinin şəxsi səyləri nəticəsində bu gün türk birliyi ən yüksək əməkdaşlıq zirvəsinə qalxıb. Elə bu baxımdan türk dövlətləri dünyada baş verən bütün qlobal siyasi proseslərə, təbii böhranlara qarşı güclü birliklə sinə gərirlər.

Xüsusi vurğulayaq ki, Türk Dövlətləri Təşkilatına üzv olan ölkələrin başçılarının Türk Dünyasının Ali Ordeninin Azərbaycan Prezidenti İlham Əliyevə verilməsi ilə bağlı qərarları da məhz bu ümumi mənafelərə xidmət edən reallıqlar nəzərə alınaraq qəbul edilib.

### Mədəni birlik

Türkdilli ölkələr siyasi, iqtisadi sahələrdə olduğu kimi, mədəni sahədə də güclərini birləşdiriblər. Qeyd edək ki, işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzurun mədəni irsinin bərpa olunması istiqamətində türkdilli ölkələr daim Azərbaycana dəstəklərini göstərirlər. Bu qardaşlıq dəstəyinin daha bir nümunəsi isə Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı seçilməsidir.

Bu barədə qərar ötən il Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının Türkiyənin Bursa şəhərində keçirilən iclasında qəbul olunub.

Təşkilatın yeni Baş katibi Sultanbay Raev jurnalistlərə ilk açıqlamasında əminliklə bildirib ki, 2023-cü ildə türk dünyasının mədəniyyət paytaxtı seçilən Şuşa şəhərinin bütün dünyada geniş tanıtdırılması və sevdirilməsi üçün strateji mədəniyyət layihələri həyata keçiriləcək.

### Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə töhfə

Baş nazir Əli Əsədov "Şuşa şəhərinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, tədbirlər planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi üzrə əlaqələndirici orqan Mədəniyyət Nazirliyi müəyyən edilib.

Tədbirlər planında "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi açılışının mart, "Xarıbülbül" VI Beynəlxalq Folklor Festivalının keçirilməsi isə may ayına planlaşdırılıb. Cari il ərzində "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ili ilə bağlı internet resurslarının və xatirə materiallarının hazırlanması: - "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ili ilə əlaqədar poçt markalarının və xatirə nişanının, Şuşa şəhərinin elektron xəritəsinin və mobil tətbiqinin hazırlanması, "Türk dünyasının mədəniyyət paytaxtı - Şuşa" portalının yaradılması da nəzərdə tutulub.

May-iyun ayları ərzində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunun təşkili və bu çərçivədə: - Beynəlxalq Türk Akademiyası ilə birgə türk dünyasında ortaq mədəni irsin, tarix-memarlıq abidələrinin qorunması, bərpası və tanıdılmasına həsr olunmuş tədbirin, TÜRKSOY-a üzv ölkələrin UNESCO Milli Komissiyalarının 9-cu Toplantısının, Türk Dünyasının Mədəni Marşrutu layihəsinin təqdimatının, Türk dünyası mədəniyyət paytaxtlarının Şuşa şəbəkəsinin yaradılması və ilk görüşünün, TÜRKSOY Muzeylər Birliyinin toplantısının keçirilməsi nəzərdə tutulub.

### "Qorqud Ata Türk Dünyası"

İyunda Şuşa şəhərində beynəlxalq uşaq yaradıcılıq festivalının, sentyabrda türk dünyası diaspor gənclərinin görüşünün, oktyabrda TÜRKSOY Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbəti iclasının keçirilməsi və mədəni tədbirlərin təşkili: - "Four seasons of Shusha" layihəsi çərçivəsində ilin dörd fəslində xarici fotoqraflar tərəfindən Şuşada lentə alınmış fotolardan ibarət sərginin təşkili, türk dünyası musiqiçilərindən ibarət yığma orkestrin konserti, həmçinin "Qorqud Ata Türk Dünyası" Film Festivalının keçirilməsi nəzərdə tutulub.

İyul-sentyabr ayları ərzində Şuşada türk dünyasının tanınmış şair və yazıçılarının iştirakı ilə ədəbi-bədii tədbirlər baş tutacaq. Məsələn, Vaqif Poeziya Günləri çərçivəsində TÜRKSOY-a üzv ölkələrin şairlərinin görüşü, Mir Möhsün Nəvvab Qarabağinin 190 illiyinə həsr olunmuş sərginin təşkili və "Mir Möhsün Nəvvab Qarabağinin silah kolleksiyası" adlı kitab-kataloqun təqdimatı, "Məclisi-üns" ədəbi məclisinin təşkili həyata keçiriləcək.

Həmçinin il ərzində TÜRKSOY, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Akademiyası ilə birgə layihələr keçiriləcək.

Cari il ərzində Şuşada TÜRKSOY fotoqraflar və rəssamlar, "Wonderland Şuşa 2023" beynəlxalq skaut, "Şuşa yaradıcılıq emalatxanası" beynəlxalq gənclər düşərgələri təşkil olunacaq.

### "Xarıbülbül əfsanəsi"

TÜRKSOY Media Mükafatının (2022-ci ilin yekunlarına dair) təqdimatı, türk dünyası xalqlarının adət və ənənələrini özündə əks etdirən tədbirlərin təşkili: - Türk dünyası xalqlarına məxsus qədim idman növlərinin nümayiş etdirilməsi, türk dünyası xalqlarının kulinariya günlərinin keçirilməsi, türk dünyası dövlətlərinin aktiv və mədəni turizm sahəsində səyahətçi, bloqçu və digər şəxslərin Şuşaya səfərlərinin təşkili, "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı" ili çərçivəsində beynəlxalq konfrans, elmi seminar və digər tədbirlərin keçirilməsi, "Türk dünyası: ortaq tarixi-mədəni dəyərlər, müasir reallıqlar və gələcəyə baxış", "Əhməd bəy Ağaoğlu və Türk dünyası", "Şuşa Türk dünyası tarixində" mövzusunda beynəlxalq konfranslar, "Orta əsr mənbələrində və müasir dövr tədqiqatlarında Qarabağ və Şuşa" mövzusunda elmi seminar, "Xarıbülbül əfsanəsi" sənədli filminin təqdimatı 2023-cü il ərzində həyata keçiriləcək.

Noyabr-dekabr aylarında isə "Şuşa - Türk dünyasının mədəniyyət paytaxtı 2023" ilinin rəsmi bağlanışı olacaq.

Göründüyü kimi, artıq tarixi yurdumuz Şuşa əzəli şan-şöhrətini də bərpa edib. 2021-ci ildə Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa bu il də türk dünyasının mədəniyyət paytaxtı kimi mədəni irsinin möhtəşəmliyini dünyaya sərgiləyəcək, türk dünyasını qürurlandıracaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

● Unikal məkan

# Tarixi, mədəni və dini abidələr sürətlə bərpa edilir

**2022-ci ildə Azərbaycanda bir sıra mədəniyyət ocaqlarının yaradılması, beynəlxalq səviyyəli mədəni-kütləvi, elmi-siyasi tədbirlərə evsahibliyi edilməsi ötən ilin uğurlu yekunları kimi tarixə qovuşdu. Bu tarixin ən unudulmaz nümunələri illər ötdükcə daha möhtəşəm görünəcək.**

2021-ci il yanvarın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxışında demişdir: "Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər". Daha sonra Şuşanın Azərbaycan xalqı üçün tarixi əhəmiyyəti, yüksək mədəni-mənəvi dəyərləri nəzərə alınmaqla Prezidentin 5 yanvar 2022-ci il tarixli sərəncamı ilə ötən il Azərbaycan Respublikasında "Şuşa ili" elan edilmişdir.

Xatırladaq ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və şanlı ordumuzun şücaəti sayəsində 2020-ci ilin noyabrında 28 illik erməni işğalından azad edilən Şuşanın mədəniyyət mərkəzi kimi imicinin bərpasının ilkin mərhələsi oldu. Sərəncamla əlaqədar Nazirlər Kabinetinin hazırladığı tədbirlər planına əsasən, nəinki Azərbaycanda, dünyanın bir sıra ölkələrində də "Şuşa ili" maraqlı tədbirlərlə keçirildi.

Ötən il Şuşa, sözün əsl mənasında, hər bir azərbaycanlı üçün ziyarətgaha çevrilmişdir. Şuşanın 270 illiyinin qeyd olunması Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu Vaqif məqbərəsinin ucaldılmasının 40-cı ildönümü və digər tədbirlərlə unudulmaz olmuşdur. Azərbaycan tarixinin, elm və mədəniyyətinin təbliğinin önə çəkildiyi bu tədbirlərdə xarici ölkələrdən gələn qonaqlara ölkəmizin inkişafı, azad edilmiş ərazilərdə görülən işlər barədə ətraflı məlumat verilmişdir.

2021-ci il mayın 7-də cənab Prezidentin "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" imzaladığı sərəncam nəinki ölkəmizdə, bütün türk dünyasında rəğbətlə qarşılanmışdır. 2022-ci il martın 31-də TÜRKSOY Daimi Şurasının Bursada keçirilən növbədənkənar iclasında isə Azərbaycanın mədəniyyət beşiyi sayılan Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi bu qədim şəhərin ucadan-uca görkəminə, qədimdən-qədim mədəniyyət tarixinə yeni çalarlar əlavə etdi. Bu xoş xəbər nəinki Azərbaycan xalqı, həmçinin türk xalqları üçün də tarixi-mədəni hadisə kimi qiymətləndirildi. İndi Şuşa şəhəri 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı kimi şərəfli adla beynəlxalq görüşlərin, konfrans və simpoziumların, festivalların, digər mədəni-kütləvi tədbirlərin keçiriləcəyi məkana çevrilib.

Şuşa nəinki Qarabağın, bütövlükdə Azərbaycanın baş tacıdır. Təəssüf ki, ermənilər işğal altında saxladıqları 28 ildə digər ərazilərimiz kimi, Şuşanı da dağıdıb, vandalizmə məruz qoyaraq, şəhərin azərbaycanlılara məxsusluğunu silməyə çalışıblar. Amma nə qədər çalışsalar da, Şuşa şəhərində mədəniyyətimizi və tarixi məxsusluğumuzu silə bilmədilər. Çünki Şuşanın hər bir daşında, hər bir abidəsində Azərbaycanın milli mədəniyyətinin notları həkk olunub və bu izləri silmək qeyri-mümkündür. İşğaldan azad olunmasından keçdiyi qısa bir zaman kəsiyində Şuşaya milli ruh qayıtdı və əvvəlki kimi Cıdır düzündə, Vaqif məqbərəsinin önündə mədəni kütləvi tədbirlərin yenidən keçirilməsinə başlanıldı. 2022-ci ildə ilboyu bir-birindən maraqlı tədbirlərin keçirilməsinin şahidi olduq.

Ötən il Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu qədim şəhərə səfərləri çərçivəsində Şuşanı cənnətməkana çevirmək üçün təxirəsalınmaz tədbirlər həyata keçirilmişdir. 2022-ci ildə bu şəhərdə bir sıra mədəniyyət ocaqlarının təməli qoyulmuşdur, onların bəzilərində hazırda son tamamlama işləri görülür, yaxın aylarda açılışı planlaşdırılır.

2022-ci ildə Şuşanın türk dünyasının mədəniyyət paytaxtı seçilməsi bu tarixi-mədəni şəhərin 2023-cü ildə də həyatının qaynar olacağından xəbər verir. Türk dünyasının mədəniyyət paytaxtı kimi Şuşada türk dövlətlərinin birgə müxtəlif mədəni-kütləvi tədbirləri keçiriləcək. Bu tədbirlərdə iştirak etmək üçün Şuşaya çoxlu tanınmış qonaqlar gələcəklər. Onların arasında mədəniyyət xadimləri, siyasətçilər, tarixçilər olacaqlar. Dünyaca məşhurlar Şuşada və işğaldan azad olunmuş digər ərazilərimizdə ermənilərin törətdikləri vandallıqları, məscidlərimizin təhqir olunmasını görməklə əsl reallığın şahidi olacaqlar.




Bünövrəsi 270 il əvvəl Pənahəli xan tərəfindən qoyulmuş bu qala şəhərində ermənilərə xas olan heç bir mədəni, dini və tarixi abidə yoxdur. Keçirilən mədəniyyət tədbirləri Şuşa qapılarının türk dünyası üçün yenidən açılması deməkdir. Şuşa türk dünyasının mədəniyyət paytaxtı kimi dünyanın hər bir qitəsindən qonaqları qəbul etməyə hazırdır.

Şuşa mədəniyyət və turizm mərkəzinə çevriləcək. Şuşanın tarixi-mədəni siması özünə qaytarılacaq, tamamilə yenilənəcək.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

● Xəbərlər

## Türk dünyasının diaspor gəncləri Şuşada bir araya gələcəklər



**Bu ilin sentyabr ayında Şuşada türk dünyası diaspor gənclərinin görüşü keçiriləcək.**

Bu barədə qərar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin təsdiq etdiyi Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı tədbirlər planında yer alıb.

Tədbirlə bağlı işlərin icrası Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə tapşırılıb.

## Şuşada VI "Xarıbülbül" Beynəlxalq Festivalı may ayında keçiriləcək

**Şuşa şəhərində VI "Xarıbülbül" Beynəlxalq Folklor Festivalının keçirilməsi bu ilin may ayına planlaşdırılır.**



Bu barədə qərar Azərbaycan Respublikasının Nazirlər Kabinetinin Şuşa şəhərinin 2023-cü il üçün türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi ilə bağlı tədbirlər planının təsdiqində yer alıb.

Festivalın təşkili ilə bağlı işlər Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinə tapşırılıb.

## Ceyhun Hacıbəyliyə həsr olunan videoçarx hazırlanıb



**Bu günlərdə mühacir ədəbiyyatımızın, tariximizin, publisistikamızın inkişafında və təbliğində müstəsna xidmətləri olan Ceyhun Hacıbəylinin anadan olmasının 132-ci ildönümü tamam oldu.**

Bu münasibətlə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi Hacıbəylilər nəslinin ən layiqli davamçılarından biri Ceyhun Hacıbəyli haqda videoçarx hazırlayıb.

Qeyd edək ki, 1891-ci il fevralın 3-də Şuşa şəhərində anadan olan Ceyhun bəy ilk təhsilini əvvəl Şuşada alıb, sonra Bakıda rus-tatar məktəbində davam etdirib. O, Azərbaycan Xalq Cümhuriyyəti (AXC) qurulana qədər "Kaspi", "Baku", "İrşad", "Tərəqqi" və digər qəzetlərlə əməkdaşlıq edib, 1917-ci ildə "İttihad" qəzetinin redaktoru olub. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra isə dövlətin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin baş redaktoru təyin edilib. 1919-cu ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Paris Sülh Konfransında iştirak edib. AXC işğal edildikdən sonra mühacirətdə fəaliyyət göstərib. Parisdə fransız mətbuatı ilə əməkdaşlıq edib. Bu nəşrlərdə əsasən sovet hökumətinin işğalçı siyasəti ilə bağlı məqalələr dərc etdirib. "İlk müsəlman Respublikası Azərbaycan", "Qarabağ dialekti və folkloru (Qafqaz Azərbaycanı)", "Azərbaycan mətbuat tarixi", "İslam əleyhinə təbliğat və onun Azərbaycandakı metodları" adlı elmi əsərlərin müəllifidir. Parisdə fransız dilində nəşr olunan "Qafqaz" və Münxendə Azərbaycan və rus dillərində çıxan "Azərbaycan" jurnallarının redaktoru olub. Azərbaycanın dahi bəstəkarı Üzeyir bəy Hacıbəyovun qardaşıdır.

Ceyhun Hacıbəyli 22 oktyabr 1962-ci ildə Parisdə dünyasını dəyişib və Sen-Klu qəbiristanlığında dəfn edilib.

2015-ci il noyabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ceyhun Hacıbəylinin 125 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

● Fotoetüd



# Şans oyunları biznesinin ölkə iqtisadiyyatına nə kimi faydası var

"Lotereya oyunları dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də kütləvi şans oyunlarının bir növü kimi olduqca populyardır. Lotereya oyunlarına həm də bəxtin sınanması üçün insanlar tərəfindən müraciət olunur. Bu oyunlarda iştirak etmək boş vaxtın səmərəli və əyləncəli keçirilməsi ilə də nəticələnir. Təbii ki, söhbət fəaliyyəti qanunvericiliklə tənzimlənən lotereya oyunlarından gedir". Bunu mətbuata açıqlamasında Milli Məclisin deputatı Müşfiq Cəfərov bildirib.

Deputat qeyd edib ki, ölkəmizdə son iki ildə bu sahəyə maraq artıb. "Azərlotereya" ASC-nin 2021-ci ilin avqustundan Türkiyənin dünyada nüfuzlu "Demirören Şans Oyunları Yatırımları A.Ş." şirkətinin törəmə müəssisəsi olan "YMT Sans B.V." şirkətinə idarəetməyə verilməsindən sonra bu sektorda xeyli canlanma müşahidə edilir. Elə həmin ilin sonunda lotereya və idman mərc oyunlarını tənzimləyən qanunvericilik aktlarına dəyişiklik edilərək qanuni oyunlarla qanunsuz oyunlar arasında sədd çəkilmiş, qanunsuz oyunları təşkil edənlərə münasibətdə cinayət məsuliyyəti sərtləşdirilmiş, qanunsuz oyunların keçirilməsinə dəstək verənlərə münasibətdə inzibati cərimələr müəyyən edilmişdir.

Qanunvericilikdə baş verən dəyişikliklərdən sonra "Lotereyalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, ölkədə lotereyalar yalnız "Azərlotereya" ASC tərəfindən keçirilə bilər. "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən isə, idman mərc oyunları ancaq "Azərlotereya" ASC ("Misli") və 01.12.2021-ci il tarixinədək akkreditasiya olunmuş "Topaz" brendi altında fəaliyyət göstərən hüquqi şəxslər tərəfindən keçirilir. Bütün digər operatorların, xüsusilə də xarici operatorların ölkə ərazisində lotereya və idman mərc oyunları keçirməsi qanunsuzdur.

Bu mövzuya toxunan deputat "Azərlotereya"nın Türkiyəyə məxsus şirkətlə əməkdaşlığı sayəsində lotereya oyunlarının güclü sosial-iqtisadi dividendlərinin olduğunu təsdiq edir: "Artıq uzun müddətdir ki, "Azərlotereya" da iqtisadiyyatın mühüm iştirakçısı kimi özünü göstərir. Lotereya biznesinin inkişafı yeni iş yerlərinin açılması, sosial layihələrin təşkili üçün mənbə yaradır, habelə dövlət büdcəsinə ödənilən vergilər lotereya oyunlarının olduqca güclü sosial-iqtisadi dividendlərinin olduğunu təsdiq edir. Azərbaycanda lotereya oyunları dünya təcrübəsinə əsasən təşkil olunur. "Azərlotereya"nın Türkiyə şirkətinə idarəetməyə verilməsi müsbət təsirini göstərir. Türkiyə lotereya və idman mərc oyunlarının təşkili və yeni məhsulların bazara çıxarılması baxımından yaxşı təcrübəyə malik olan ölkələrdən biridir. Bu baxımdan Türkiyə ilə əməkdaşlıq həm də Azərbaycanda bu sahənin inkişafı baxımından vacib addımdır. Belə ki, qardaş dövlətin şirkətinin "Azərlotereya"nın idarəçiliyinə cəlb edilməsi ölkəmizdə lotereya və idman mərc oyunları sənayesini inkişaf etdirmək üçün investisiya və yeni texnologiya cəlb etməyə imkan verib, dünya təcrübəsində mövcud olan ən yaxşı modellərin, oyun sistemlərinin, texnoloji infrastruktur, müasir satış, cəlbetmə və stimullaşdırma mexanizmlərinin ölkəmizdə tətbiqinə şərait yaradıb".

"Azərlotereya"nın 2001-ci ildən fəaliyyət göstərdiyini qeyd edən iqtisadçı Vüqar Oruc öz növbəsində qeyd edib ki, "Azərlotereya"nın öz əməkdaşlarının peşə hazırlıqlarının yüksəldilməsi üçün atdığı addımlar təqdirəlayiqdir: "Türkiyənin aparıcı lotereya oyunlarının təşkilini həyata keçirən "Demirören Holding" ölkəmizdə lotereya oyunları üçün səlahiyyət əldə edib. "Demirören Holding" Azərbaycandakı birbaşa xarici investisiya layihəsi (FDI) olaraq dəyərləndirilən və şirkətin ölkədəki fəaliyyətində lokomotiv rolunu oynayan önəmli təşəbbüsçü olaraq, "Azərlotereya"nın yenidən təşkilində iştirak edib. Bu proses hazırda çox uğurla davam edir. Bu istiqamət üzrə Türkiyənin təcrübəsi böyükdür. Həmin təcrübənin Azərbaycanda tətbiq olunması istiqamətində müvafiq addımlar atılır. Fikrimcə, bu istiqamətdə həm dövlət büdcəsinə ödənilən vergilərin həcmi, həm də yeni iş yerlərinin yaradılması və əhalinin sahibkarlıq subyektləri olaraq proseslərə cəlb olunması "Demirören Holding"in ölkədəki makroiqtisadi göstəricilərə əhəmiyyətli dərəcədə təsir edən uğurlu fəaliyyətinin örnəklərindəndir.

Onu da qeyd edək ki, İqtisadiyyat Nazirliyi prosesə ciddi nəzarət edir və lotereya təşkilatçıları tərəfindən elan olunan uduş məbləğlərinin tam şəffaflıqla udan tərəfə çatdırılması təmin olunur. Son dövrlər "Azərlotereya"nın fəaliyyətində yenilik hiss olunur. Bundan başqa, müvafiq dövlət qurumları ilə müəyyən müqavilələr və memorandumlar imzalanır. Bir neçə gün öncə "Azərlotereya" ASC ilə UNEC arasında memorandum imzalandı. Bu, "Azərlotereya"nın öz fəaliyyətini genişləndirmək istədiyini və cəmiyyətin ayrı-ayrı strukturlarının prosesdə iştirakının təmin edilməsinin əsas hədəflərdən biri olduğunu göstərir. Hesab edirik ki, "Azərlotereya" və "Demirören Holding" öz işlərinin öhdəsindən yüksək səviyyədə gəlir. Bu fonda gələcəkdə daha ciddi nəticələrin əldə olunması gözlənilir. Əgər bu istiqamət üzrə fəaliyyət genişlənərsə, proses büdcəyə daxilolmalar və vergi fonunda ölkə iqtisadiyyatına müsbət töhfələr verəcək".

Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dosenti, Vəkillər Kollegiyasının üzvü Mübariz Yolçiyev isə vurğulayıb ki, Türkiyə ilə Azərbaycan arasındakı yatırımların qarşılıqlı qorunması və təşviqi ilə bağlı beynəlxalq müqavilə var. Həmin müqavilə fonunda Türkiyədən olan yatırımlar ölkəmizdə ən yaxşı şəkildə və imtiyazlar çərçivəsində qorunur: ""Demirören Holding" Türkiyədə lotereya və idman mərc oyunlarını idarə edən bir şirkətdir və bu sahədə kifayət qədər təcrübəyə malikdir. Eyni zamanda şəriklərindən biri italyan şirkətidir. İtalyan şirkətinin özü də bu sahədə yetərincə təcrübəlidir. Hesab edirəm ki, "Azərlotereya"nın "Demirören Holding"ə idarəetməyə verilməsi uğurlu addımdır. Bu addım "Azərlotereya"nın bu sahədə inkişafını daha da sürətləndirəcək və yeni müasir layihələr həyata keçiriləcək. Şirkətdən bildirdilər ki, "Azərlotereya" "Demirören Holding"in idarəçiliyinə verildikdən sonra şirkətin effektiv idarəçiliyi, beynəlxalq standartlara cavab verən mühasibat uçotuna uyğun maliyyə intizamının tətbiq edilməsi, yeni lotereya çeşidlərinin (o cümlədən innovativ virtual lotereyalar) satışa çıxarılması nəticəsində şirkət qeyri-neft sektorunun iri vergi ödəyicilərindən birinə çevrilib və bu statusunu qoruyub saxlaması onun əsas məqsədlərindən biridir.

Təəssüf ki, bu sahədə problemlər də vardır. Qanunvericiliklə qanunsuz şans oyunlarının qumar oyunları kimi qadağan edilməsinə baxmayaraq, qanunsuz şans oyunlarının, xüsusilə də qanunsuz idman mərc oyunlarının ölkədə təşkil edilməsi, keçirilməsi və reklamı davam etməkdədir. Nəticədə qeyri-qanuni lotereya və idman mərc oyunları platformalarına edilən ödənişlər, belə platformalardan qazanılan uduşlar və həmin platformaların operatorlarının mənfəəti vergidən yayınır və bununla da dövlətimiz ciddi maliyyə itkiləri ilə üzləşir".

M.Yolçiyev əlavə edib ki, lotereya oyunlarından yalnız şanslı qaliblər qazanmır, bu biznes növünün dövlətə olan faydası gözdən qaçırılmamalıdır. Yeni iş imkanlarının yaradılması, ödənilən vergi məbləğlərinin həcmi, dövlət büdcəsinə daxilolmalar, icra edilən sosial məsuliyyət xarakterli layihələr, texnologiya və "nau hou" transferi şans oyunları sektorunun ölkə iqtisadiyyatına verdiyi töhfədə böyük pay sahibi olmasından xəbər verir: "Məlumata görə, ölkənin rəsmi lotereya təşkilatçısı və qanuni idman mərc oyunları operatoru - "Azərlotereya"nın təkcə 2021-ci ildə mənfəət vergisi olaraq dövlət büdcəsinə daxilolması 5,1 milyon manat təşkil edib. Növbəti ilin maliyyə hesabatında isə bu rəqəmin daha çox olacağı gözlənilir. Ötən dövr ərzində "Azərlotereya"nın fəaliyyətinin beynəlxalq standartlara uyğun aparılması, şans oyunlarının dünya təcrübəsinə malik mütəxəssislərlə birlikdə hazırlanması, oyunların çeşidinin, ümumi uduş fondunun və uduş imkanlarının artırılması, satış şəbəkələrinin genişləndirilməsi, "qara bazar"la mübarizə tədbirlərinin gücləndirilməsi belə deməyə əsas verir.

Qeyd edək ki, fəaliyyətinin genişləndirilməsi ilə əlaqədar "Azərlotereya"nın əməkdaşlarının sayı 49-dan 180-nə qaldırılıb. Hazırda "Azərlotereya" məhsullarının və xidmətlərinin Bakıda və bölgələrdə yayımı ilə 10-a yaxın şirkət və yüzlərlə fiziki şəxs məşğul olur. Bu prosesdə "Azərlotereya"nın əməkdaşlıq etdiyi rəsmi distribütor şirkətlərinin hazırda Bakıda və bölgələrdə 300-ə yaxın dileri və 3000-ə yaxın satış nöqtəsi fəaliyyət göstərir. Bu məntəqələrdə 3300-3400-ə yaxın insan çalışır. Satış məntəqələrinin və əməkdaşların yarıdan çoxu regionlardadır".

Vəkil qeyd edib ki, "Azərlotereya" fəaliyyətində cəmiyyətin inkişafına hesablanan sosialyönümlü layihələrə də böyük yer verir. Şirkət son bir ildə ölkə əhəmiyyətli tədbirlərin təşkilinə dəstək verməklə yanaşı, maraqlı layihələrə də imza atıb. Onlardan biri olan "Əmanətə sədaqət" layihəsi əsasında şəhid ailə üzvlərinin təhsil və yaşam xərcləri qarşılanır. "Azərlotereya"nın Elm və Təhsil Nazirliyi, eləcə də "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi ilə əməkdaşlığı nəticəsində həyata keçirdiyi sosial layihə hazırda 66 nəfəri əhatə edir ki, onlardan 59-u Azərbaycanda, 7-si isə Türkiyədə təhsil alır. Layihə çərçivəsində Türkiyənin dövlət ali təhsil müəssisələrinin tələbəsi olan şəhid övladlarının təhsil haqqı və yaşayış xərcləri, həmçinin Azərbaycanda ali təhsil alan şəhid övladlarının yaşayış xərcləri qarşılanır.

Şirkət Azərbaycanda marketinq sahəsinin inkişafına dəstək məqsədilə təşkil edilən "Milli Marketinq Forumu"na da baş sponsor kimi qatılıb. "Azərlotereya" sağlam həyat tərzinin təşviqi ilə bağlı "Bakı marafonu-2022"nin tərəfdaşı olub, eləcə də ətraf mühitin mühafizəsinə töhfə vermək məqsədilə "Gələcəyə yaşıl miras" devizi ilə ağacəkmə aksiyasına qoşulub. "Azərlotereya" həmçinin mədəniyyət sahəsində də layihələrin icrasında yaxından iştirak edib. Belə ki, "Azərlotereya"nın sponsorluğu ilə Bakıda türk filmləri festivalı keçirilib. Hər zaman idmanın inkişafı yönündə dövlətin prioritet siyasətinə dəstək göstərən "Azərlotereya"nın "Misli" brendi hazırda Azərbaycan Premyer Liqasının baş sponsorudur. Şirkət bundan sonra da ölkəmizin tərəqqisində önəmli rol oynayan layihələrin icrasında iştirak edəcək. Rəqabətli insan kapitalının formalaşdırılmasına verilən töhfə texnoloji inkişaf etmiş dünyada rəqabətli insan kapitalının formalaşması iqtisadiyyatın effektivliyini təmin edən əsas amillərdən biridir.

Təsadüfi deyil ki, rəqabətli insan kapitalının formalaşdırılması Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in siyahısına da salınıb. Bu prioritet istiqamətin əsas hədəfləri müasir əmək bazarının tələblərinə uyğun bilik və bacarıqların inkişaf etdirilməsi, rəqabətli insan kapitalının formalaşması, milli kadrların yüksək rəqəmsal mədəniyyətə və bacarıqlara sahib olması və innovativ texnologiyalara əsaslanan rəqəmsal iqtisadiyyatın formalaşdırılması yolu ilə sosial rifahı yüksəltməkdir. Azərbaycan Respublikası Prezidentinin 6 yanvar 2021-ci il tarixli fərmanı ilə Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin, Azərbaycanda Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinin Afiləedilmiş Mərkəzinin yaradılması da ölkəmizi yeni texnoloji rəqabət mühitində önə çıxarmaq məqsədindən irəli gəlir.

Həm buna görə, həm də "Azərlotereya" ölkənin qeyri-neft sektorunda əhəmiyyətli iştirakçıya çevrilməyi hədəflədiyindən şirkət daxilində və şans oyunları industriyasında rəqabətli insan kapitalının formalaşdırılması şirkətin əsas məqsədlərindən biridir. Bu məqsədlə "Azərlotereya" həm ən müasir innovativ texnologiyaları tətbiq edir, istehsal prosesinin bütün mərhələləri daxil olmaqla dəyər zəncirini maksimum rəqəmsallaşdırır, Dördüncü Sənaye İnqilabının töhfələrindən olan robotik proseslərin avtomatlaşdırılması kimi yenilikləri öz fəaliyyət sahələrinə inteqrasiya edir, işçilərin bu texnologiyalara və innovasiyalara dair biliklərini artırır, həm də Avropa Lotereyaları Assosiasiyası (EL), Dünya Lotereyaları Assosiasiyası (WLA), "Demirören Holding" və sair partnyorların təqdim etdiyi təlimlərdə öz işçilərinin iştirakını təşviq edir, habelə işçilərin, eləcə də satış agentlərinin və digər kritik biznes tərəfdaşlarının ən müasir beynəlxalq standartlara bələd olması üçün mütəmadi olaraq məlumatlarla bölüşür və təlimlər keçirir.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

struktur idarələrinə tələb olunan mebel aksesuarlarının satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 20 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176.**

***Tender komissiyası***






# OXUCULARIN NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

mobil tətbiq və E-arxiv elektron platformaların SAP ERP sistemi ilə inteqrasiyası xidmətlərinin satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***



## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

"SAP Ariba" proqram təminatının tətbiqi üzrə lisenziyalar və tətbiqlə bağlı zəruri işlərin (dəstək, müşayiət, təlimlər keçirilməsi və s.) satın alınması məqsədilə

***müsabiqə elan edir***

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 24 fevral 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.**

***Tender komissiyası***


# ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin rəhbərliyi və aparat işçiləri Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektorluğu Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə Dövlət Universitetinin rektoru Yusif Yusibov və kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Mərkəzi Bankının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin rektoru, professor Havar Məmmədov və universitetin kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Mingəçevir Dövlət Universitetinin rektoru Şahin Bayramov və universitetin kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi general-leytenant İlqar Musayev Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin polkovniki İntiqam Fətullayevə atası
**DAVUD FƏTULLAYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hünzlə başsağlığı verir.

---

Bakı Biznes Universitetinin rektoru, professor İbad Abbasov və universitetin professor-müəllim heyəti Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı
**FƏXRƏDDİN QURBANOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5071
Sifariş 404

Qiyməti 40 qəpik